AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

8 İYUN 2018-ci il CÜMƏ № 127 (6160) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev metronun "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib










**İyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov "Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Qeyd olundu ki, bu stansiyada işlər təyin edilmiş müddətdən xeyli əvvəl yekunlaşdırılıb. Stansiyanın yerüstü vestibülündə müvafiq təmir, yenidənqurma işləri görülüb. Divarlar müasir tələblərə uyğun yenilənib və ümumi memarlıq üslubuna uyğunlaşdırılıb, vestibülün estetik görkəmi dəyişib. Tavanda ümumi memarlıq-dizayn tərtibatını tamamlayan müasir işıqlandırma sistemi quraşdırılıb. Stansiyanın infrastrukturu, o cümlədən stansiya yolları, platforma və platformaaltı səviyyələrdə yerləşən texniki sahələr dövrün ən yeni standartlarının tələbləri nəzərə alınaraq yenidən qurulub və daha funksional olub. Mühəndis-texniki qurğularda əsaslı yenidənqurma işləri aparılıb. Stansiyada hərəkətin tənzimlənməsi, videomüşahidə, işarəvermə və rabitə sistemlərinin avadanlıqları yenilənməklə, onların yerləşdiyi sahələr və otaqlar yeni standartlar səviyyəsinə çatdırılıb. Stansiyada ən müasir mərkəzləşdirilmiş isitmə-soyutma sistemi quraşdırılıb.

Qeyd edək ki, stansiyada təmir işlərinə başlanılması, ilk növbədə, eskalatorların dəyişdirilməsi zərurətindən irəli gəlmişdi. Bakı Metropoliteninin 1967-ci il noyabrın 6-da istifadəyə verilən ilk 5 stansiyasından biri olan "Sahil" stansiyasının eskalatorları 50 illik istismar müddətini başa vurmuşdu. Onların dəyişdirildiyi müddətdə bir giriş-çıxışı olan stansiyanın bağlanması və sərnişindaşıma prosesinin dayandırılması qaçılmaz idi. Stansiyanın uzunmüddətli istismar dövründə sıradan çıxmış, yaxud köhnəlmiş avadanlıq və digər infrastrukturunun yenilənməsi də lazım gəlirdi. Stansiyada genişmiqyaslı yenidənqurma işlərinə 2017-ci ilin avqust ayından start verildi.

Yenidənqurma prosesi çərçivəsində istismar müddətini başa vurmuş 3 eskalator sökülərək əvəzində Almaniya istehsalı olan 4 yeni eskalator quraşdırıldı. Dərin özüllü stansiyaların xüsusiyyətləri nəzərə alınmaqla, konstruksiyasında bir sıra mühəndis-texniki yeniliklər edilmiş bu eskalatorlar ilk dəfə məhz Bakı Metropolitenində tətbiq olunub. Üç eskalator əvəzinə dördünün qoyulması isə bir giriş-çıxışı olan, həmçinin sərnişin axınının gur olduğu stansiyada hərəkətin daha operativ və rahat tənzimlənməsinə şərait yaradacaq.

**(davamı 2-ci səhifədə)**

## O.M.Mirqasımovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Oqtay Mirəsədulla oğlu Mirqasımov "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 iyun 2018-ci il.**

## M.C.Məmmədovun Tovuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Cahangir oğlu Məmmədov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 iyun 2018-ci il.**

## T.M.Zeynalovun Tovuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tofiq Məhəmmədəli oğlu Zeynalov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 iyun 2018-ci il.**

## Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** M-4 Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun 217-ci kilometrində Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,5 milyon (üç milyon beş yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 7 iyun 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Xalqınızın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyur, Sizə xoşbəxtlik, Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Azərbaycan üçün bu əlamətdar gündə ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərini dərinləşdirmək, hər iki ölkənin siyasi, mədəni və iqtisadi sahələrdə mövcud potensialından xalqlarımızın mənafeyi naminə tam istifadə etmək əzmində olduğumu bildirmək istəyirəm.

Cənab Prezident, Sizi bir daha səmimi qəlbdən təbrik edir, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

**Marselo Rebelo de Souza**
**Portuqaliya Respublikasının Prezidenti**

# Prezident İlham Əliyev metronun "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib

**(əvvəli 1-ci səhifədə)**

Eskalatorların quraşdırılması başa çatdıqdan sonra stansiyanın ümumi memarlıq ansamblına uyğun örtük təbəqəsi çəkilib, işıqlandırma və videomüşahidə sistemləri, habelə monitorlar yenilənib.

Dövlətimizin başçısı "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmaya qədərki vəziyyətini əks etdirən fotostendlə tanış oldu. Bildirildi ki, burada söküntü başa çatdıqdan sonra metal konstruksiyalar, platforma boyunca stansiya yolları və yol divarları gücləndirilib, eləcə də tunellərdə axıntıya qarşı tədbirlər görülüb.

Bakı Metropoliteninin hər bir stansiyası memarlıq üslubu ilə də seçilir. Özünəməxsus görünüşü olan "Sahil" stansiyasında platformanın orta salonun sonunda əvvəlki pannonun yerində doğan günəş kompozisiyası yer alır. Bütün divar boyu həkk olunmuş kompozisiya mükəmməlliyi ilə diqqəti çəkir. Bundan başqa, pilon divarları boyunca milli xalçaçılıq sənəti elementləri ilə zənginləşdirilmiş pərvazların arxasının işıqlandırılması və digər yeni elementlər stansiyanın memarlıq ansamblını zənginləşdirir.

Prezident İlham Əliyevin imzaladığı Sərəncamla təsdiq olunmuş Dövlət Proqramına əsasən Bakı Metropoliteni stansiyalarının yenidən qurulması, infrastrukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə aparılır. Dövlətimizin başçısına məlumat verildi ki, hazırda "Bakmil" stansiyasının yenidənqurma tədbirləri mərhələli şəkildə yerinə yetirilir. Yaxın gələcəkdə "Xətai" stansiyasında köhnə eskalatorların dəyişdirilməsi, eləcə də metropolitenin digər stansiya və stansiya yollarında yenidənqurma işlərinin davam etdirilməsi nəzərdə tutulub.

"Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olan Prezident İlham Əliyev Bakı Metropoliteninin kollektivinə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**





## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Azərbaycan xalqının müsəlman dünyasında demokratik inkişafın ilk modelini yaratdığı Azərbaycan Xalq Cümhuriyyətinin tarixi 100 illik yubileyi münasibətilə Zati-alinizə və xalqınıza səmimi təbriklərimi çatdırıram.

Braziliya və Azərbaycan arasındakı əlaqələrin hazırkı inkişaf mərhələsi iki ölkənin tərəqqisinə və rifahına töhfə verir.

Hörmətli cənab Prezident, xalqlarımız arasındakı dostluq münasibətlərinin və müxtəlif sahələrdə əməkdaşlığımızın möhkəmləndirilməsi üçün daim çalışacağıma əmin olun.

Zati-aliləri, Sizə xoşbəxtlik, ali dövləti vəzifənizin həyata keçirilməsində uğurlar arzulayıram. Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edəsiniz.

**Mişel Temer**
**Braziliya Federativ Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi Makedoniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan təbrik etməkdən böyük şərəf hissi duyuram. Ölkənizə səmimi qəlbdən firavanlıq, Azərbaycan xalqına yüksək rifah arzulayıram.

Sizinlə görüşlərimizi, o cümlədən bu ilin mart ayında Bakıda səmimi, açıq və dostluq şəraitində keçirilən son görüşümüzü böyük məmnunluqla xatırlayıram. Sizi yaxın gələcəkdə Makedoniya Respublikasında böyük məmnunluq hissi ilə qarşılayacağıma ümid edirəm. Bu əlamətdar gündə dost ölkələrimiz arasında mövcud olan əlaqələrin qarşıdan gələn dövrdə daha uğurla inkişaf edəcəyinə qəti inamımı ifadə edirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

**George İvanov**
**Makedoniya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu.

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə, Azərbaycan xalqına və hökumətinə İraq Respublikası hökuməti və xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına rifah və əmin-amanlıq diləyirəm. Fürsətdən istifadə edərək xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin dərinliyini vurğulayıram.

Zati-aliləri, ən dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Doktor Heydər əl-İbadi**
**İraq Respublikasının Baş naziri**

# Böyük Britaniya Kraliçası II Elizabetin təvəllüd günü münasibətilə Bakıda qəbul təşkil olunub





**Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası II Elizabetin təvəllüd günü münasibətilə Bakıda qəbul təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Britaniyanın dövlət himnləri səslənib.

Böyük Britaniyanın ölkəmizdəki səfiri xanım Kerol Krofts Kraliçanın təvəllüd gününün Azərbaycanda qeyd edilməsinin əlamətdar hadisə olduğunu söyləyib. O, ölkələrimiz arasında əməkdaşlığın hazırkı səviyyəsini yüksək qiymətləndirib.

Energetika naziri Pərviz Şahbazov tədbirdə çıxış edərək əlamətdar gün münasibətilə Britaniya xalqını təbrik edib. Nazir bildirib ki, iki ölkə arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əsasında davam edən əlaqələrin tarixi 26 ildən çoxdur. Əlaqələrimiz enerji və qeyri-enerji sektoru daxil olmaqla, bir sıra sahələri əhatə edir. Britaniya Azərbaycanda ən böyük investordur. Azərbaycanda 400 Britaniya şirkəti fəaliyyət göstərir. Bu yaxınlarda açılışı olan Cənub Qaz Dəhlizi əməkdaşlığımızda və qlobal enerji təminatında yeni üfüqlər açır. "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılması, yeni yataqların kəşfi ilə bağlı nəzərdə tutulan tədbirlər tərəfdaşlıq əlaqələrimizin yeni səviyyəyə qalxmasına xidmət edəcək. Hər iki ölkə sülhün və qlobal təhlükəsizliyin təmin olunmasında sıx əməkdaşlıq edir.

Nazir əmin olduğunu bildirib ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq gələcəkdə daha da güclənəcək.

Sonra Azərbaycanla Britaniya arasında əlaqələrdən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbir konsert proqramı ilə davam edib.

**AZƏRTAC**

## Energetika naziri Pərviz Şahbazov "Azərbaycan Milli Neft Komitəsi" İB-in sədri seçilib

**Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Azərbaycan Milli Neft Komitəsi" İctimai Birliyinin (İB) sədri seçilib.**

İB-dən AZƏRTAC-a bildirilib ki, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin sədrliyi ilə "Azərbaycan Milli Neft Komitəsi" İctimai Birliyinin növbəti iclası keçirilib. İclasda İctimai Birliyin yeni sədri, idarə heyətinin 19 nəfərdən ibarət tərkibi seçilib. "Azərbaycan Milli Neft Komitəsi" İB-in yeni sədri energetika naziri Pərviz Şahbazov seçilib.

"Azərbaycan Milli Neft Komitəsi" İB 2005-ci ildə təsis edilib və həmin il Yohanesburqda keçirilən Konqresdə Dünya Neft Şurasına (PC) üzv seçilib. Hər üç ildən bir keçirilən Dünya Neft Konqresinin əsas təşkilatçısı 1933-cü ildə yaradılmış Dünya Neft Şurasıdır. Konqres neft və qaz sənayesi üzrə mühüm məsələlərin müzakirə olunduğu və vacib qərarların qəbul edildiyi beynəlxalq platformadır. Bitərəf və qeyri-siyasi qurum olan Dünya Neft Şurası bu sahədə elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi, dünyanın neft ehtiyatlarından davamlı və hamının rifahına xidmət edəcək şəkildə istifadə olunması istiqamətlərində fəaliyyət göstərir. 65 üzv ölkəni birləşdirən PC dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96 faizini əhatə edir. Hazırda Dünya Neft Şurasının icraiyyə komitəsinin prezidenti norveçli Tor Fjaerandır.

**AZƏRTAC**

*Sergey Lavrov:*

## "Dağlıq Qarabağa dair danışıqların Minsk qrupu formatı ən optimal variantdır"

**Dağlıq Qarabağ məsələsinin həlli barədə Rusiyanın mövqeyi dəyişməz qalır. Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov bu sözləri Moskvada ermənistanlı həmkarı Zoqrab Mnatsakanyan ilə birgə mətbuat konfransında söyləyib.**

AZƏRTAC xəbər verir ki, RF XİN başçısı "DQR" danışıqlar prosesinə qaytarıla bilərmi?" - sualının cavabında deyib: "Rusiyanın mövqeyi dəyişməz qalır. RF-nin mövqeyinə görə, Dağlıq Qarabağ məsələsi ATƏT-in Minsk qrupu vasitəsilə həll edilməlidir. Azərbaycan və digər dövlətlərlə yanaşı Ermənistan da bu qrupun iştirakçısıdır. Biz Minsk qrupunun həmsədri olan üç ölkədən biri kimi əminik ki, bu, optimal formatdır və Bakı ilə Yerevanın razılığa gəlməsinə imkan verə biləcək şərait yaradılması üzrə fransızlar və amerikalılarla birlikdə ümumi, maraqlı və ziddiyyətsiz xətt yürüdürük".



S.Lavrov qeyd edib ki, bu istiqamətdə aparılan işlər illər boyu davam edir. O deyib: "Bu işin bəzi mərhələlərində Dağlıq Qarabağın nümayəndələri prosesdə iştirak ediblər. Sonra tərəflər arasında razılaşmaya əsasən danışıqların formatı dəyişdirilib və indiki kimi olub. Əgər müəyyən mərhələdə tərəflər Dağlıq Qarabağın danışıqlarda təmsil olunması barədə razılığa gəlsələr, bu, onların qərarı olacaq və biz də bu qərara hörmətlə yanaşacağıq".

Xatırladaq ki, erməni jurnalistin sualında belə bir fikir səslənib ki, Minsk qrupunun həmsədrləri, xüsusən Popov deyib ki, "Dağlıq Qarabağ danışıqlar masası arxasına qayıtmalıdır". RF XİN başçısı buna sərt reaksiya verərək qeyd edib ki, Minsk qrupunun həmsədrləri heç vaxt "belə etməlidir" deməyiblər. Nazir deyib: "Yeri gəlmişkən, cənab Popov (Rusiya tərəfdən həmsədr) heç vaxt "qayıtmalıdır" sözünü deməyib. Xahiş edirəm, bir qədər səliqəli olun, yoxsa biz gülümsəməyə son qoyacağıq".

**AZƏRTAC**

*XİN:*

## Ermənistan tərəfi anlamalıdır ki, işğalçı ölkə ilə 25 ildən artıqdır danışıqların aparılması Azərbaycanın ən böyük güzəştidir

**Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu və işğalın davam etməsi bilavasitə münaqişə tərəfi kimi Ermənistanın beynəlxalq hüquqi məsuliyyətini müəyyən edir.**

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın baş nazirinin açıqlamasını şərh edərək deyib.

Hikmət Hacıyev bildirib ki, Ermənistan rəhbərliyi tərəfindən verilən bu kimi açıqlamalar münaqişənin həlli üzrə danışıqlar prosesini pozmağa və işğala əsaslanan status-kvonu saxlamağa yönəlmiş qeyri-konstruktiv addımdır. Ermənistan rəhbərliyini əldə edilmiş razılaşmaların kağız üzərində qalması narahat edirsə, onda BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirməlidir. Bu qətnamələrdə işğalçı qoşunların zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilir.

"Ermənistanın yeni rəhbərliyinə xatırlatmaq istərdik ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının da vətəndaş statusu dəyişməyib. Onlar Dağlıq Qarabağın Azərbaycan icması ilə birlikdə Azərbaycan Respublikasının vətəndaşları olaraq qalmaqda davam edirlər. Dağlıq Qarabağda cərəyan edən son proseslər bir daha nümayiş etdirdi ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması mütəşəkkil cinayətkar qruplaşma və mafiya strukturunun total əsarəti və istismarındadır", - deyə XİN-in sözçüsü bildirib.

Mətbuat xidmətinin rəhbəri deyib ki, danışıqlar prosesi ilə əlaqədar Azərbaycan tərəfi öz mövqeyini açıq və birmənalı şəkildə dəfələrlə ifadə edib. Münaqişənin tezliklə həll edilməsi, regionda davamlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan mövcud format və gündəlik əsasında danışıqların davam etdirilməsinə hazırdır. Danışıqların hədəfi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, etnik təmizləməyə məruz qalmış azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının təmin olunmasıdır. Ermənistan tərəfi anlamalıdır ki, işğalçı və təcavüzkar ölkə olan Ermənistanla 25 ildən artıq danışıqların aparılması Azərbaycanın ən böyük güzəştidir.

**AZƏRTAC**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel və 2, 13, 20, 31 may tarixli saylarımızda)*

### 29 may 2018-ci il

- **Azərbaycan Qadınlarının V Forumunun iştirakçılarına:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 30 may 2018-ci il

- **İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Nattarellaya:** İtaliyanın milli bayramı - Respublika Günü münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 31 may 2018-ci il

- Prezident İlham Əliyev Avropa Komissiyasının nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavinini qəbul edib.



- **Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib:** Prezident İlham Əliyevin çıxışı.

### 3 iyun 2018-ci il

- Prezident İlham Əliyev Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibini qəbul edib.

### 4 iyun 2018-ci il

- Prezident İlham Əliyev İran Prezidenti Aparatının rəhbərini qəbul edib.
- **İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava:** İsveç Krallığının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 5 iyun 2018-ci il

- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Goranboyda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Prezident İlham Əliyev Goranboyda Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun açılışında iştirak edib.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Goranboyda Bayraq Muzeyinin açılışı.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Prezident İlham Əliyev Goranboyda "Region Agropark"ın açılışında iştirak edib: Prezident İlham Əliyevin çıxışı.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Prezident İlham Əliyev Goranboyda "Dəliməmmədli" yarımstansiyasının açılışında iştirak edib.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının İpək yolu ilə kəsişmə qurğusunun və 4,95 kilometrlik hissəsinin açılışı olub: Prezident İlham Əliyev açılışda iştirak edib.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Naftalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət.
- **Prezident İlham Əliyevin Goranboy rayonuna və Naftalan şəhərinə səfəri:** Naftalan Şəhər Mərkəzi Xəstəxanası istifadəyə verilib: Prezident İlham Əliyev açılışda iştirak edib: Prezident İlham Əliyevin çıxışı.
- Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi üçün inşa edilmiş şəhərciklə tanış olub.

*(davamı növbəti saylarımızda)*

*15 iyun Milli Qurtuluş Günüdür*

# Böyük qayıdış

**Ümummilli lider, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və idarəçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Ulu öndər Azərbaycan tarixində yeni parlaq səhifə açan nadir şəxsiyyət olmuşdur. 1993-cü ilin yayında Azərbaycan xalqı son ümid yeri kimi öz böyük oğlu Heydər Əliyevə üz tutanda ölkəmiz "olum, ya ölüm" dilemması qarşısında qalmışdı. O, Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, respublikamızı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.**

Heydər Əliyev mahir siyasətçi və dövlət xadimi kimi şərəfli missiyanı gerçəkləşdirdi: müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və bəlağətsiz deyə bilərik ki, bu ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin reallaşdırdığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir məktəb bitirmək deməkdir. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqının taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaq. Respublikamızın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Ulu öndər həmişə həyatı boyu xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam, ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər vardır ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası qoyulub. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyində, inkişafında, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan — Heydər Əlirza oğlu Əliyevdir.

15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirmişdir. Beləliklə, 15 iyun — Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Həmin vaxtdan bu günə qədər Azərbaycan xalqı 15 iyun gününü əziz bayram kimi qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir. Ötən illərdə ümummilli liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir.



Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqla, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki həqiqəti dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycanla, xalqı ilə bağlı arzuları bitib-tükənməz, Vətənə, xalqa olan məhəbbəti hədsiz-hüdudsuz idi. Onun ürəyi Azərbaycan qədər geniş idi. O, dünyanın hansı nöqtəsinə gedirdisə, Azərbaycanı onun problemlərini də ürəyində aparırdı. Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu. Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı və bu yolda ömrünü şam kimi əritdi.

Böyük amalları və fəaliyyəti ilə xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Heydər Əliyev əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Ulu öndər respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində gördüyü işləri ilə xalqının qəlbində özünə əbədi abidə ucaldıb. Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır. Bu isə əbədiyyət deməkdir. Heydər Əliyev yolunun bu gün davam etməsi, Azərbaycan dövlətinin gələcəyi, onun daha da güclənməsi ərazi bütövlüyünün bərpa olunması, hər bir vətəndaş üçün firavan və rahat həyat şəraitinin yaradılması deməkdir.

Müasir Azərbaycanın yaradıcısı və fədakar oğlu öz həyatının mənasını doğma xalqına xidmətdə görürdü, bu məqsədlə gecə-gündüz çalışırdı. Ulu öndərin mənalı ömür yolu Vətənə sədaqət nümunəsidir. Bütün dünya bunu görüb, dərk edib və lazımınca qiymətləndirib. Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin işlərini, onun dəyərli irsini örnək kimi qəbul edirdilər. Çünki onlar hələ sovetlərin zamanından Heydər Əliyevin nələrə qadir olduğunun şahidi idilər. Təkrarsız təşkilatçılıq qabiliyyətinə malik olan ulu öndər o zamankı imperiyanın yeritdiyi siyasəti yaxşı dərk edirdi. Moskvada işləyərkən bu siyasəti milli mənafelərə uyğunlaşdırmağı bacarırdı. O, zamanı qabaqlayaraq respublikamızın gələcək siyasəti, müstəqilliyi üçün təməl hazırlayırdı, Azərbaycanın intibahına səy göstərirdi, milli iqtisadiyyatımızın dinamik inkişafından ötrü əlindən gələni edirdi. Xüsusən ən müxtəlif sahələrdə işləyəcək kadr potensialını yaratmaq Heydər Əliyev fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. Birmənalı olaraq qeyd etmək olar ki, Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı Azərbaycanı başının üstünü almış bütün bəlalardan qorudu. Respublikamızın müstəqilliyini bərpa etdikdən sonra yaşadığı keşməkeşli və mürəkkəb dövr daim xatirimizdədir. Xüsusən 1993-cü il heç birimizin yadından çıxmayacaq. O vaxt respublikamızın başının üstünü qara buludlar alanda çoxları gələcəyə ümidini itirmişdi. Ölkə parçalanıb məhv olurdu. Xalqın təkidli xahişi ilə hakimiyyətə qayıtmış, təlatümlü və məcrasından çıxmış ölkəni xilas etmək naminə fədakarlıq göstərmiş ulu öndər müasir tariximizin yeni bir səhifəsini yaratdı, müstəqil Azərbaycan dövlətini daxili və xarici təhlükələrdən xilas edərək onu inkişaf və tərəqqi yoluna çıxardı. Ölkəmizdə bərqərar olan sabitlik, həyatın bütün sahələrində qazanılan uğurlar Heydər Əliyevin məhz dahi şəxsiyyət olduğunu göstərdi. Bu sabitlik və əmin-amanlıq sayəsində nəhəng islahatlar həyata keçirildi. Qərb standartlarına uyğun qanunvericilik aktları qəbul edildi. Həyata keçirilən iqtisadi islahatlar respublikamızın hərtərəfli inkişafına təkan verdi. Biz bu gün dərin iftixar hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycan dövləti ümummilli liderimizin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir. Məhz buna görə Heydər Əliyevin adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır.

Azərbaycanın çox zəngin və şərəfli tarixi var. Bu tarix öz yaddaşında xalqın taleyini müəyyənləşdirmiş nadir şəxsiyyətləri əbədi yaşadır. Öz dühası, müdrikliyi ilə xüsusi yer tutmuş, Təkcə Azərbaycanın deyil, bütün dünyanın taleyinə həlledici təsir göstərən nəhəng siyasətçilər və dövlət xadimləri arasında Heydər Əliyev hələ sağlığında ikən əfsanəyə dönmüş, bəşəri miqyasda tanınmışdır.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaq, Azərbaycanın indiki, eləcə də gələcək nəsilləri üçün əbədi örnək olacaqdır. Ulu öndər canından çox sevdiyi xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir, müstəqil Azərbaycan bəxş etdi. Ən yeni tariximizin son 40 ildən artıq bir dövrü onun şərəfli adı, nəhəng siyasi fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu illərdə ölkəmizin qazandığı bütün uğurlar inkişaf və tərəqqi xalqımızın müasir milli dəyərlərinin formalaşması Heydər Əliyev dühasının bəhrəsidir. Biz çox xoşbəxtik ki, qismətimizə onun kimi nadir şəxsiyyətlə, qüdrətli lider və dövlət rəhbəri ilə eyni dövrdə yaşamaq səadəti düşmüşdür.

Heydər Əliyev ikinci dəfə respublika rəhbəri seçildiyi dövrdə Azərbaycanın sosial-iqtisadi, ictimai-mədəni həyatı dərin tənəzzül keçirirdi. Məhz onun rəhbərliyə gəlişi ilə respublikada böyük dirçəliş, işgüzarlıq və yaradıcılıq əhval-ruhiyyəsi yarandı. Hər yerdə geniş quruculuq işləri başlandı, durğunluq aradan qalxdı, qısa vaxtda Azərbaycan keçmiş İttifaqın davamlı inkişaf edən respublikasına çevrildi. O illərdə hər hansı bir azərbaycanlının yolu İttifaqın hansı guşəsinə düşürdüsə, hamının-rəhbər işçilərin də, sıravi insanların da Heydər Əliyevin fəaliyyəti haqqında necə heyranlıqla danışdığının şahidi olurdu. Təsadüfi deyil ki, Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-80-cı illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır. Bu gün təkcə xalqımız deyil, həm də dünya şöhrətli siyasətçilər, tarixçilər və politoloqlar ümummilli liderimiz Heydər Əliyevi müasir, müstəqil Azərbaycan dövlətinin həqiqi memarı və yaradıcısı sayırlar.

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Zaman keçdikcə, Heydər Əliyev ucalığını, Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha qabarıq və aydın görürük.

Bu gün Heydər Əliyevin sönməz ideyalarının layiqli davamçısı olan ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə uğurla addımlayırıq. Dövlət başçısı ulu öndərin müəyyən etdiyi strateji siyasi xətti uğurla həyata keçirir.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. O, ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Ulu öndər Vətən üçün, xalq üçün doğuldu, Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ulu öndər əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, Azərbaycanı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Heydər Əliyev fövqəlbəşər bir düha kimi xalqın əbədi məhəbbətini qazandı. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə heykəl ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideallarını öz yolunda mayaka çevirəcəkdir. Ulu öndərin irsi hələ uzun illər xalqımızın müstəqillik yolunu işıqlandıracaq.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu yalnız maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Bu yenilməz şəxsiyyət həm də təvazökarlıq simvolu idi. Ona görə də təkcə bizim xalqımız deyil, bütün dünya bu görkəmli dövlət xadiminə, əsrimizin siyasi həyatında mühüm yer tutmuş, uzun və şərəfli yol keçmiş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəsləyir.

Heydər Əliyev və onun əməlləri daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanırıq ki, dövlətimiz milli öndərimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən ləyaqətli davamçısı cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini daha da möhkəmləndirəcəkdir.

**Vəli ALBƏNDOV,**
**"Qarabağ E.R." MMC-nin direktoru, respublikanın Əməkdar mühəndisi.**

# Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib



**İyunun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası olub.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev və təşkilat komitəsinin üzvləri Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı görülən işləri əks etdirən sərgiyə baxıblar.

Sərgidə "İslam mədəniyyətinin paytaxtı Naxçıvan-2018" gümüşdən hazırlanan loqotipi, üzərində loqotip əks olunan döş nişanları, zərflər, poçt markaları, "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransının materialları, "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "İslamda müdrik kəlamlar", "Naxçıvan türbələri", "Naxçıvan hamamları", "Naxçıvan buzxanaları", "Qədim və müasir Naxçıvan" kitabları, "İslam mədəniyyətinin paytaxtı Naxçıvan-2018" loqotipinin tanıtım videoçarxı, "Naxçıvan: türk-islam mədəniyyəti abidələri" televiziya filmi, Naxçıvandakı türk-islam mədəniyyəti abidələrinin əks olunduğu suvenirlər, həmçinin üzərində loqo olan xalça, duzdan, muncuqdan, gipsdən, misdən və dəridən hazırlanan əl işləri, müxtəlif aksesuarlar, eləcə də "İslam mədəniyyətinin paytaxtı Naxçıvan-2018" loqosunun əks olunduğu yerli məhsullar nümayiş olunurdu.

Sərgiyə baxışdan sonra Təşkilat Komitəsinin iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin 2016-cı il noyabrın 25-də ilk iclası keçirilmiş, ötən dövrdə isə işçi qrupu səviyyəsində yığıncaqlar olmuşdur. Bu gün isə Təşkilat Komitəsinin ikinci iclası keçirilir. İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı açılış tədbiri keçiriləcəkdir. Bununla bağlı Tədbirlər Planına uyğun olaraq müvafiq hazırlıq işləri görülür.

İclasda Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova görülmüş işlər barədə məlumat verərək qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli Sərəncamına əsasən "İslam mədəniyyətinin paytaxtı Naxçıvan - 2018" loqotipi hazırlanıb. Hazırda Naxçıvan şəhərindəki monitorlarda, Naxçıvan Beynəlxalq Hava Limanının və Naxçıvan şəhərinin girişində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və "Təbriz" otelində loqotip nümayiş olunur. Bundan əlavə, kütləvi informasiya vasitələrində, internet saytlarında və sosial şəbəkələrdə də loqotip tanıdılır. üzərində loqotip əks olunmuş 100 min ədəd zərf, 100 min ədəd poçt markası, markalardan ibarət 200 ədəd buklet, 500 ədəd döş nişanı hazırlanıb. Tədbirlər Planına əsasən Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə Xatın, Yusif Küseyroğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin İSESCO-nun siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

2017-ci il iyulun 7-də "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransı, dekabrın 6-da "ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçirilib. Muxtar respublikanın türk-islam mədəniyyəti abidələrinin təbliği məqsədilə çap materiallarının hazırlanması da diqqətdə saxlanılıb. "İslamda müdrik kəlamlar", "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "Naxçıvan buzxanaları", "Naxçıvan hamamları", "Naxçıvan türbələri" kitabları, "Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları nəşr olunub. "İslam mədəniyyətinin paytaxtı Naxçıvan-2018" rəsmi internet səhifəsi, "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "İslam mədəniyyətinin paytaxtı Naxçıvan" televiziya filmləri, "Naxçıvan-2018. İslam mədəniyyəti" videoçarxı, eləcə də "İslam mədəniyyətinin paytaxtı Naxçıvan-2018" loqotipi əks olunmuş suvenirlər hazırlanıb.

Diqqətə çatdırılıb ki, 2018-ci il fevralın 21-də ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsində "Naxçıvan İslam mədəniyyətinin paytaxtı kimi" mövzusunda interaktiv dərs keçirilib. Muxtar respublikada türk-islam mədəniyyəti abidələrinin təmir və bərpası da diqqətdə saxlanılır. Hazırda Şərur rayonundakı Yengicə hamamında və Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksində əsaslı bərpa işləri davam etdirilir. Eyni zamanda, Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı İSESCO-nun saytına yerləşdirmək üçün "Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018" loqotipi, Naxçıvanın müasir görüntülərini, təbiətini, tarix-mədəniyyət abidələrini əks etdirən fotoşəkillər seçilərək aidiyyəti üzrə təqdim edilib. İkinci muxtar respublikanın mədəniyyət müəssisələrində də "Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018" devizi altında tədbirlər keçirilib.

İclasda "Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018" açılış tədbirinin proqramı Təşkilat Komitəsinin üzvlərinə təqdim edilib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək deyib ki, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı müəyyənləşdirilən vəzifələrin icrası ötən dövrdə diqqətdə saxlanılıb. Azərbaycan Milli Kitabxanasında Naxçıvanın İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı sərgi açılıb, bütün ölkə kitabxanalarında müvafiq guşələr yaradılıb, mədəniyyət müəssisələrində tədbirlər keçirilib. Eyni zamanda İSESCO-nun saytında "Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018" tədbiri haqqında ingilis, ərəb və fransız dillərində məlumat yerləşdirilib. "Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018" tədbirinə böyük maraq vardır. Beynəlxalq təşkilatların və islam ölkələrinin yüksək səviyyəli nümayəndələrinin tədbirdə iştirakı gözlənilir. Qonaqların Bakı şəhərində qarşılanması və Naxçıvan şəhərinə yola salınması ilə bağlı bütün təşkilati işlər görülüb. Muxtar respublikada yaradılan müasir infrastruktur və islami dəyərlərin yaşadılması sahəsində görülən işlər tədbirin yüksək səviyyədə keçirilməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirinə hazırlıqla bağlı tapşırıqlar verərək deyib ki, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi Naxçıvanda "İslam filmləri həftəsi"nin keçirilməsi üçün ölkələri və filmləri müəyyənləşdirməli, cari ilin sentyabr ayında İslam dinini olduğu kimi təqdim edən filmlərdən ibarət "İslam filmləri həftəsi" keçirilməlidir. İqtisadiyyat Nazirliyi "Naxçıvan İslam mədəniyyətinin paytaxtı Naxçıvan-2018" loqotipi əks olunmuş suvenirlərin hədiyyələr mağazalarında satışının təşkilini diqqətdə saxlamalıdır. Tədbirlər Planına əsasən 2018-ci ildə "İslam dini və ailə dəyərləri" mövzusunda konfrans, iyun ayının 20-dək "İslam dəyərləri: ramazan və qurban bayramları" mövzusunda elmi forum təşkil edilməlidir. Təşkilat Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə bu tədbirlərin keçirilməsini təmin etməli, İslam dinində ailə dəyərlərinin, eləcə də Ramazan və Qurban bayramlarının mahiyyəti elmi şəkildə izah olunmalıdır.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi ilə birlikdə açılış tədbirində iştirak edəcək ölkələrin siyahısını müəyyənləşdirməli, açılış tədbiri üçün eyni ölçüdə 2 ədəd Dövlət bayrağı, İSESCO-nun və üzərində "İslam mədəniyyətinin paytaxtı Naxçıvan - 2018" loqotipi əks olunmuş bayraqlar hazırlanmalıdır. Açılış tədbirində nümayiş üçün hazırlanmış "İslam mədəniyyətinin paytaxtı Naxçıvan" filmi ingilis dilinə tərcümə olunmalıdır. Dram Teatrın foyesində "Mənim Naxçıvanım" foto sərgisi təşkil olunmalı, yarım saatlıq konsert proqramı hazırlanmalı, Naxçıvan Biznes Mərkəzində sərgi təşkil olunmalıdır. Rabitə və Yeni Texnologiyalar Nazirliyi açılış tədbirində ərəb və ingilis dillərində sinxron tərcüməni təmin etməlidir. Tədbirin proqramına əsasən iyun ayının 19-20-də qonaqların mədəni-kütləvi tədbirlərdə iştirakı və görməli yerlərlə tanışlığı üçün Nəqliyyat Nazirliyi avtobuslar ayırmalı, Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi avtobuslara ingilis dilini bilən bələdçilər və öz nümayəndələrini müəyyənləşdirməlidir.

Ali Məclisin Sədri deyib ki, Ekologiya və Təbii Sərvətlər və Mədəniyyət nazirlikləri İSESCO-nun "Yaşıl şəhər strategiyası" ekspertlərinin görüşünün Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında keçirilməsini təmin etməli, Azərbaycan Milli Elmlər Akademiyasının Bioresurslar İnstitutu ilə birlikdə Naxçıvan təbiəti ilə bağlı kitab və fotoşəkillərdən ibarət sərgi açılmalıdır. Tədbir iştirakçılarının qarşılanması və yola salınması ilə bağlı məsələlər Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinə, Mədəniyyət Nazirliyinə və Naxçıvan Beynəlxalq Hava Limanına tapşırılmışdır.

İclasda Təşkilat Komitəsinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli çıxış edərək deyib ki, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi əlamətdar hadisədir. Görülən işlər Naxçıvanı İslam mədəniyyətinin paytaxtı kimi Azərbaycan dövlətçiliyinə layiq şəkildə bütün dünyaya təqdim edəcəkdir. Naxçıvan təktanrıçılığın mərkəzidir və qədim diyarda bununla bağlı 3 mühüm abidə vardır. Bu torpaqda böyük mədəniyyət formalaşıb. Naxçıvan abidələrində İslami dəyərlər və dünyəvilik vəhdətdə götürülüb. Nəticədə Naxçıvanda İslam dininə cəhalət və fanatizmdən uzaq yeni bir baxış - elmi və mədəni yanaşma formalaşıb. Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi və bununla bağlı görülən işlər İslama münasibətin Naxçıvan modeli, əslində isə ümumdünya miqyasında gerçək İslam modelidir. İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan Milli Elmlər Akademiyasında Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlər keçirilib, "Naxçıvan xalçaları" və "İslamda müdrik kəlamlar" kitabları ərəb dilinə tərcümə olunub, dövri mətbuatda məqalələr dərc olunub.

Ali Məclisin Sədri Naxçıvanda İslam dininə, onun dəyərlərinə və mahiyyətinə uyğun münasibətin formalaşdığını, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsinin isə bu qədim diyarın tanıdılması baxımından mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb, açılış tədbirinin ölkə və dünya mətbuatında geniş işıqlandırılmasının vacibliyini qeyd edib.

AZƏRTAC

# Bakıda "Təhsilin strateji planlaşdırılması: düşüncələr və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib






**İyunun 7-də ADA Universitetinin Avropa İttifaqının Bakıdakı nümayəndəliyinin dəstəyi ilə keçirdiyi "Təhsilin strateji planlaşdırılması: düşüncələr və perspektivlər" mövzusunda ikigünlük beynəlxalq elm və təhsil konfransı işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində ADA Universitetinin prorektoru Vəfa Kazdal tədbirin "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasına"na həsr olunduğunu bildirib. Prorektor konfransda bu sənədin qəbulundan sonra əldə olunan nəticələrin təhlil ediləcəyini və bu istiqamətdə müzakirələrin aparılacağını diqqətə çatdırıb. Beynəlxalq tədbirə 50-dən çox tədqiqat işinin təqdim olunduğunu deyən V.Kazdal qeyd edib ki, müstəqil elmi şura tərəfindən 15 tədqiqat işi seçilib. Konfrans çərçivəsində ADA Universitetinin Təhsil İnstitutunun bu il təhsilin idarəedilməsi ixtisası üzrə məzun olan ilk buraxılışının diplom işləri və apardıqları elmi araşdırmanın nəticələri ətrafında da fikir mübadiləsi aparılacaq. Tədbir iştirakçıları təhsilin müxtəlif səviyyələrində tətbiq edilən aparıcı beynəlxalq təcrübə ilə tanış olacaqlar.

Təhsil naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində bir sıra hədəflərə çatmaq istiqamətində mühüm addımlar atıldığını, vacib nailiyyətlərin əldə edildiyini bildirib. Nazir məlumat verib ki, 2008-ci ildən başlayaraq ümumtəhsil müəssisələrində yeni kurikulumların tətbiqi prosesi başa çatmaqdadır. Artıq növbəti tədris ilində yeni kurikulumlar XI sinifdə tətbiq ediləcək. Azərbaycan 2019-cu ildə TİMSS beynəlxalq qiymətləndirməsində də iştirak edəcək, bu nəticələrin təhlili də məzmunun təkmilləşdirilməsi, şagird nailiyyətlərinə təsir göstərən amillərin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət daşıyacaq. Bundan əlavə tədris planlarının strukturu, dərs yükünün həcminin şagird nailiyyətlərinə və sağlamlığına təsiri, ayrı-ayrı fənlərin məzmun və qiymətləndirmə çərçivələri istiqamətində tədqiqatlar Təhsil Nazirliyinin maraq dairəsindədir.

Müəllimlərlə bağlı da bir sıra nailiyyətlərin əldə edildiyini deyən nazir bildirib ki, ölkənin tarixində ilk dəfə 130 mindən artıq müəllim diaqnostik qiymətləndirməyə cəlb olunub, onların müvafiq ehtiyacları müəyyənləşdirilib. Diaqnostik qiymətləndirməyə cəlb edilmiş müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə artırılmaqla əməkhaqqları iki dəfə artıb. Müəllim işləmək arzusunda olan insanların sayı üç dəfə çoxalıb. Hazırda istər ilk peşə-ixtisas təhsili, istərsə də ali təhsil sahəsində bir sıra mühüm layihələr həyata keçirilir.

Son illərdə əldə edilən nəticələrdən danışan nazir qeyd edib ki, ali təhsil müəssisələrinə qəbul edilmiş abituriyentlərin sayı əsaslı, təxminən 4 min nəfər (12 faiz) artıb, eyni zamanda, ali təhsil müəssisələrinə qəbul balı yüksəlib (179 baldan 239 bala, 60 bal və ya 33,5 faiz). Bununla belə peşə və ali təhsil müəssisələrində tədris olunan proqramların məzmunu, hazırda əmək bazarında baş verən əsas tendensiyalar, innovasiya və startaplar istiqamətində bir sıra mühüm tədqiqatların aparılmasına ehtiyac var.

Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, son illər milli təhsilimizin inkişafında yeni mərhələ başlanıb. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar, modelləşdirmə, quruculuq işləri ölkəmizdə təhsilin keyfiyyətini yüksəldir. Ölkədə iqtisadi kapitalın insan kapitalına çevrilməsi müşahidə edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi altında aparılan islahatlar, görülən tədbirlər, qazanılan nəticələr bundan sonrakı illər üçün də dərin nikbinlik yaradır.

"Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində görülən işlər barədə məlumat verən M.Abbaszadə dərsliklərin monitorinqində, yeni qaydaların qəbul olunmasında, müasir modellərin hazırlanmasında və digər məsələlərdə rəhbərlik etdiyi qurumun fəaliyyətini diqqətə çatdırıb.

DİM Direktorlar Şurasının sədri gələn il 9-cu siniflərlə yanaşı, 11-ci sinif şagirdlərinin də yeni proqramlar üzrə buraxılış imtahanı verəcəklərini diqqətə çatdırıb.

Tədbirdə Böyük Britaniyanın Oksford Universitetinin professoru Deyvid Briksin konfrans iştirakçılarına videomüraciəti təqdim olunub.

Daha sonra konfrans işini "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"na dair dörd istiqamətdə - "Bacarıqlara əsaslanan təhsil məzmununun inkişaf etdirilməsi", "Təhsil sistemində insan resurslarının müasirləşdirilməsi", "Şəffaf və səmərəli idarəetmə mexanizmlərinin formalaşdırılması" və "Son texnoloji tələblərə cavab verən infrastrukturun yaradılması" panelləri üzrə davam etdirib.

AZƏRTAC

# ABŞ Konqresinin Azərbaycan üzrə İşçi Qrupunun həmsədrləri Cümhuriyyətin 100 illiyi ilə bağlı bəyanatlar veriblər

**ABŞ Konqresinin Azərbaycan üzrə İşçi Qrupunun (59 nəfər Konqres üzvü İşçi Qrupda təmsil olunur) həmsədrləri Stiv Kohen (demokrat, Tennesi) və Bil Şuster (respublikaçı, Pensilvaniya) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı bəyanatlar veriblər.**

AZƏRTAC-ın məlumatına görə, konqresmen Stiv Kohen bəyanatında Azərbaycanı təbrik edərək bildirir ki, mayın 28-i Azərbaycan xalqının 1918-ci ildə Rusiya imperiyasından müstəqillik əldə edilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günü kimi qeyd edilir. Azərbaycanın müstəqilliyinə 1920-ci ildə sovet qoşunları tərəfindən son qoyulsa da, Cümhuriyyət dünyada müsəlman çoxluğa malik ilk dünyəvi, parlamentli demokratik respublika kimi formalaşıb və onun Prezident Vudro Vilson administrasiyası zamanında ABŞ tərəfindən tanınması diqqətəlayiqdir. Cümhuriyyət 1918-ci ildə öz vətəndaşlarını universal seçki hüququ ilə təmin edib, bununla da qadınlara seçki hüququ verən ilk müsəlman dövlət kimi bərqərar olub.

Bəyanatda qeyd olunur ki, Sovet İttifaqı dağılan zaman Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə öz dövlət müstəqilliyini bərpa edib.

Sənəddə diqqətə çatdırılır ki, Azərbaycan qlobal enerji təhlükəsizliyinin artırılmasında əsas rol oynayan dövlət kimi formalaşıb. Xəzər dənizindən başlamaqla, Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniyadan keçməklə İtaliyaya çəkilən Cənub Qaz Dəhlizinin yekunlaşması və Xəzər dənizindən Avropa bazarlarına təbii qazın həcminin çoxalması ilə ABŞ-ın əsas müttəfiqlərinin enerji təhlükəsizliyi artacaq.

Bəyanatda bununla yanaşı, Azərbaycanın İsrailin neft istehlakının təqribən 40 faizini qarşıladığı və İsraillə dost münasibətlərə malik olduğu bildirilir. Yəhudilərin heç bir əngəl olmadan əsrlərboyu Azərbaycanda yaşadıqları, Azərbaycanın yəhudi icmasının sayının 12000 nəfər təşkil etdiyi qeyd olunur. Azərbaycanın, həmçinin Xristian icmasının da evi olduğu və ölkənin Avropa Parlamenti tərəfindən dini tolerantlığa görə təqdir olunduğu barədə bəyanatda məlumat verilir.

Konqres üzvü Stiv Kohen diqqətə çatdırır ki, Azərbaycan ABŞ-ın əsas qlobal təhlükəsizlik tərəfdaşıdır. NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramının fəal üzvü kimi, Azərbaycan terrorizmə, narkotiklərə qarşı mübarizə, nüvə silahlarının yayılmaması sahələrində ABŞ ilə əməkdaşlıq edir. Azərbaycan əsgərləri əvvəllər Kosovo və İraqda olduğu kimi, hazırda Əfqanıstanda ABŞ əsgərləri ilə çiyin-çiyinə xidmət edir. Azərbaycan öz hava məkanında ABŞ və NATO-nun mühüm uçuşlar həyata keçirməsinə, ABŞ və NATO qüvvələrinin təminatı üçün istifadə edilməsinə imkan yaradıb.

Bəyanatın sonunda ABŞ və Azərbaycan arasında tərəfdaşlığın inkişafı və hər iki xalqa fayda verməsi arzu olunur.

ABŞ Konqresinin Azərbaycan üzrə İşçi Qrupunun digər həmsədri Bil Şuster də eyni gündə bəyanatla çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdırıb.

Bəyanatda bildirilir ki, Azərbaycan 1918-ci ildə Rusiya imperiyasından müstəqilliyi elan edəndən sonra etnik mənsubiyyətindən, dinindən və cinsindən asılı olmayaraq, öz sərhədləri daxilində bütün vətəndaş hüquqlarını və siyasi hüquqları təmin edərək yeni dövlətlər üçün nümunə olub. ABŞ həm 1918-ci ildə, həm də 90-cı illərin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyini tanıyıb və dəstəkləyib. O zamandan etibarən Azərbaycanın ABŞ-ın müttəfiqi və tərəfdaşı olduğu, xüsusilə 11 sentyabr terror hücumlarından sonra ona hərtərəfli və qeyd-şərtsiz dəstək verən ilk ölkələr arasında olduğu bəyanatda diqqətə çatdırılır. Qeyd olunur ki, Azərbaycan Əfqanıstanda terrorizmə qarşı qlobal mübarizə səylərini dəstəkləyir, öz hava məkanından NATO təyyarələrinin Əfqanıstana uçuşuna və quru ərazisindən qeyri-hərbi yüklərin keçirilməsinə şərait yaradır. Azərbaycan İsraillə güclü əlaqələr yaratmış ölkələrdən biridir. Bu, Azərbaycanın təkcə ABŞ-la deyil, onun müttəfiqləri ilə də münasibətlər saxlamasını, Azərbaycanın davamlı şəkildə demokratik dövlətlərlə sadiq və yaxın dost münasibətlər üzrə öhdəliyini qorumasını nümayiş etdirir.

Bəyanatda o da bildirilir ki, Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində liderliyini davam etdirir. Cənub Qaz Dəhlizi Xəzər dənizinin təbii qaz ehtiyatlarının Avropa bazarına çıxmasına və Avropa ölkələrinin enerji ehtiyatlarının diversifikasiyasına imkan verəcək. Bu, regionda enerji təhlükəsizliyini təmin edilməsi və ABŞ, habelə onun müttəfiqlərinin qlobal ticarət imkanlarının artırılması üçün vacibdir.

Bəyanatın sonunda davamlı tərəfdaşlığa və dostluğa görə Azərbaycana təşəkkür bildirilir və Cümhuriyyətin 100 illiyi münasibətilə Konqresin digər üzvləri təbriklərə qoşulmağa çağırılır.

Xatırladaq ki, iyunun 5-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə ölkəmizin ABŞ-dakı səfirliyi tərəfindən təşkil edilmiş rəsmi tədbirdə mindən çox iştirakçı qarşısında çıxış edən Konqresmen Bil Şuster sözügedən bəyanatdakı məqamları bir daha diqqətə çatdırıb və ABŞ-Azərbaycan münasibətlərinin əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, Cümhuriyyətin 100 illiyi münasibətilə indiyə qədər ABŞ Konqresində Senatın bir, Nümayəndələr Palatasının isə yeddi üzvü bəyanatlar verib.

AZƏRTAC

# Şərqdə ilk demokratik respublika



**Xalqımızın çoxəsrlik tarixinin parlaq və şərəfli səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyəti tariximizin müstəsna hadisəsi olmaqla çağdaş dövlətçiliyimizin təməlini qoymuş, milli ruhun dirçəlişində, milli mədəniyyətimizin inkişafında mühüm rol oynamışdır. Dünya tarixində yeni - respublika tipli demokratik dövlət idarəçiliyi formasının geniş yayılmağa başladığı dövrdə yaranmış Azərbaycan Cümhuriyyəti xalqımızın tarixinin ən qədim qatlarından başlanan dövlətçilik ənənələrinin qanunauyğun davamı idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ili "Xalq Cümhuriyyəti ili" elan etməsi haqqında sərəncamı tarixi bir sənəd olmaqla xalq tərəfindən böyük rəğbətlə qarşılanmışdır.**

Təqribən 5 min illik dövlətçilik tarixi olan Azərbaycan xalqı dünyanın ən qədim və ən zəngin dövlətçilik mədəniyyətinə malik xalqlarındandır. Ulu əcdadlarımız akkad-şumer mədəniyyətindən qaynaqlanaraq bu qədim, müqəddəs ərazilərimizdə bərqərar olmuş, özünün yüksək təsərrüfat həyatını, maddi-mənəvi mədəniyyətini yaratmış və inkişaf etdirmiş, dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınmışdır. Dünyanın istər mədəniyyət və incəsənət, istər elm və təhsil, istərsə də siyasi tarixinə Azərbaycan daim öz töhfəsini vermiş və bu tarixi daha da zənginləşdirmişdir.

1918-ci ilin fevralın 23-də Tiflisdə deputatlar Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya seymini, başqa sözlə, Zaqafqaziya parlamentini yaratdılar.

Zaqafqaziya seyminin ən ardıcıl üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 22-də Zaqafqaziya seymi Cənubi Qafqazın müstəqilliyini elan etdi və Zaqafqaziya Demokratik Federativ Respublikası yaradıldı. Lakin istər daxili, istər xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti hökumətinin konkret addımlar atmasına imkan vermədi. Mayın 27-də Seymin Müsəlman fraksiyasının üzvləri özlərinin ayrıca iclasını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Azərbaycan Milli Şurası yaradıldı. Azərbaycanın ilk Parlamenti yarandı və ilk iclasda Azərbaycanın Milli Şurasının sədri seçildi.

1918-ci ildə Azərbaycan müstəqillik uğrunda mübarizəyə qalxdığı bir zamanda mənfur qonşumuz olan erməni daşnakları Andronikin və bolşevik libaslı Şaumyanın rəhbərliyi ilə Qubada, Şamaxıda, Bakıda, Zəngəzurda, Naxçıvanda və digər bölgələrdə azərbaycanlılara qarşı vəhşicəsinə qırğınlar törətmiş, on minlərlə dinc əhalini qətlə yetirmişlər. Həmin keşməkeşli, çətin və mürəkkəb zamanda xalqımız istiqlal mücadiləsini dayandırmamış və 1918-ci il mayın 28-də öz müstəqilliyini elan etmişdir.

Azərbaycan müstəqilliyini qoruyub saxlamaq üçün ilk növbədə öz ordusunu yaratmalı idi. Yeni qurulan milli hökumət bolşevik-daşnak hərbi birləşmələrinə cavab vermək iqtidarında deyildi. Belə bir vəziyyətdə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini birinci tanıyan qardaş Türkiyə Respublikası öz köməyini təklif etdi. O dövrdə Türkiyənin müdafiə naziri olan general Ənvər Paşanın təşəbbüsü ilə Gəncə şəhərində ordunun yaradılması qərara alındı və həmin orduya Nuru Paşa rəhbərlik etməyə başladı. Qüdrətli islam ordusunun köməyi ilə cümhuriyyətin paytaxtı 1918-ci il sentyabrın 15-də Gəncə şəhərindən Bakı şəhərinə köçürüldü. Erməni daşnaklarının və bolşeviklərin hökmranlığına son qoyuldu. Beləliklə, həmin gün Azərbaycanın erməni və bolşevizm terrorundan xilas günü kimi tarixə düşdü.

1920-ci ilin aprelində bolşevik işğalı nəticəsində cümhuriyyət süqut etdikdən sonra da müstəqillik hissləri azərbaycanlıları heç zaman tərk etmədi, azadlıq ideyaları şüurlara hakim kəsildi. Nəhayət, əsrin sonunda tarix bizə ikinci şans verdi.

1991-ci ildə Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycan öz müstəqilliyini bəyan etdi və dünya dövlətləri tərəfindən tanındı, beynəlxalq təşkilatlara daxil olduq, demək olar ki, dünyanın əsas dövlətləri ilə diplomatik əlaqələr yaratdıq.

Bu tarixi günün ümumxalq bayramına çevrilməsində ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyində çıxış edən Prezident Heydər Əliyev demişdir: "Mayın 28-i böyük bayramımızdır. Deyə bilirəm ki, bu müstəqil Azərbaycanın ən yüksək siyasi, ictimai, milli bayramıdır. Bizim bu bayram 1918-ci ilin mayında Tbilisi şəhərində Azərbaycanın istiqlal bəyannaməsi elan olunan günün bayramıdır və bu da tamamilə qanunauyğundur. Çünki 1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman Azərbaycanın müstəqilliyini bərpa etməsi haqqında qərar qəbul olunubdur, yəni 1918-ci ildə edilmiş müstəqillik bərpa olunubdur... Bu bayram bizim milli bayramımızdır. Bizim istiqlaliyyət bayramımızdır, ən əsas siyasi, milli bayramımızdır. Biz 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirmişik, bu gün də yüksək qiymətləndiririk və bugünkü müstəqil Azərbaycan həmin Xalq Cümhuriyyətinin varisidir".

Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində demişdir: "Bu il Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib. Biz demokratik respublikanın 100 illik yubileyini il ərzində qeyd edirik və bu cari ilin əsas hadisəsidir. Bilirsinizmi, tarixə nəzər salanda düşünürsən, təsadüfi deyil ki, müsəlman aləmində ilk demokratik respublika məhz azərbaycanlılar tərəfindən yaradılıb. Yəni, bu hadisə xalqımızın keçmişindən, onun azadlıqsevər, məğrur və mütərəqqi xarakterindən qaynaqlanır. Azərbaycan ədəbiyyatının klassiklərini oxuyanda görürsən ki, onların əsərlərində məhz bu gün aktual olan məsələlərlə bağlı fəlsəfi mövzular kifayət qədərdir. Buna görə də 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bizim üçün tarixi hadisədir. Biz qanuni qürur hissi keçiririk ki, Şərqdə demokratiyanın əsasını qoyan məhz Azərbaycan xalqı olub. Demokratik respublikanın ənənələri bu gün də yaşayır və müasir Azərbaycan onun hüquqi varisidir. Siyasi islahatlar üçün qısa müddətdə çox böyük işlər görülüb. Təkcə bunu qeyd etmək kifayətdir ki, qadınlara səsvermə hüququ Avropa ölkələrinin çoxundan xeyli əvvəl verilib. Bir sıra başqa mühüm qərarlar qəbul edilib. Əlbəttə, bu gün geriyə nəzər salanda birinci cümhuriyyətin banilərini minnətdarlıq hissi ilə xatırlayırıq, lakin onun aqibətindən daim ibrət dərsi almalıyıq. Bu cümhuriyyət iki ildən bir qədər az mövcud olub və biz, əlbəttə ki, bu dərsləri unutmamalıyıq. Buna görə biz bu gün Azərbaycanın müstəqilliyini, suverenliyini, iqtisadi potensialını, beynəlxalq nüfuzunu möhkəmləndirməklə Azərbaycanın həmişə təkcə forma etibarilə deyil, həm də mahiyyət etibarilə müstəqil olması üçün nə mümkündürsə edirik. Düşünürəm ki, əgər birinci demokratik respublikanın əsasını qoyanlar bugünkü Azərbaycanı görə bilsəydilər, onlar bizim ölkəmizlə fəxr edərdilər".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Heydər Əliyevin ölməz irsi, milli, bəşəri düşüncələri, mükəmməl ideyaları əvvəlkindən də artıq məsuliyyətlə, daha təkmil formada yüksək insani dəyərlərlə davam etdirilir.

### MÜBARƏKDİR, CÜMHURİYYƏT!

*Tarixləşən babalardan bu günümə yadigarsan,*
*Bütün müsəlman Şərqində istiqlala bayraqdarsan,*
*Qaranlıqda şəfəq saçan Günəş, Aysan, çıraqbansan,*
*İstiqlala mayak oldun, parlamentli hakimiyyət,*
*Zəfər dolu 100 illiyin mübarəkdir, Cümhuriyyət!*

*Beş min illik dövlətçilik tarixin var, torpağın var,*
*Ana dilin, islam dinin, ay-ulduzlu bayrağın var,*
*Dədə Qorqud məkanısan, sönməz odun, ocağın var,*
*Qoy eşq olsun deyim sənə yaratdın elm, mədəniyyət,*
*Zəfər dolu 100 illiyin mübarəkdir, Cümhuriyyət!*

*İstiqlalçün əzab çəkdin, yandın oda,*
*Vətən eşqli ərənlərin yolunda can etdi fəda,*
*Sənə tarixi qiymət verdi ulu öndər Heydər ata,*
*Xalqımızın tarixində heykəlləşən əbədiyyət,*
*Zəfər dolu 100 illiyin mübarəkdir, Cümhuriyyət!*

*Nəsillərin yaddaşında iz salmısan zaman-zaman,*
*Yazılıb və yazılacaq şərəfinə saysız dastan,*
*Bu gün sənin xələfindir yeniləşən Azərbaycan,*
*Davamındır İlham yolu, irəlidə qalibiyyət,*
*Zəfər dolu 100 illiyin mübarəkdir, Cümhuriyyət!*

**Oqtay ZƏNGİLANLI.**

# TƏNTƏNƏLİ "MƏZUN GÜNÜ"




Gəncə Dövlət Universitetində ənənəvi olaraq, təntənəli "Məzun Günü" coşqusu yaşanıb. Universitetin ikinci tədris korpusunda, şəhərin əzəmətli Bayraq Meydanında keçirilən tədbirdə universitetin professor-müəllim heyəti, tələbələr, valideynlər və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

İlk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin 100 illik yubileyinə, ulu öndər Heydər Əliyevin 95-ci ildönümünə, Gəncə Dövlət Universitetinin yaranmasının 80 illiyinə həsr edilmiş kitab sərgisinə və Pedaqoji fakültənin tələbələrinin idmanda qazandıqları uğurlarını və tələbələrin əl işlərini əks etdirən rəsm sərgisinə baxış keçirildi. Tədbiri giriş sözü ilə açan universitetin rektoru professor Yusif Yusibov ilk öncə tələbələri "Məzun Günü" münasibətilə təbrik edərək, onların universitetin ictimai-siyasi həyatında olduğu kimi semestr imtahanlarında da daha fəal olduğunu qeyd edərək, məzun olan bütün tələbələrə gələcək həyatlarında və dövlət imtahanlarında uğurlar arzuladı.

Riyaziyyat-informatika fakültəsinin tələbələri Hekayət Əhmədzadə və Nigar Əliyeva, fizika və texniki fənlər fakültəsinin tələbəsi Səbinə Hüseynli məzunlar adından müasir standartlara cavab verən ali təhsil ocağında yaradılmış şəraitə, göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə, müəllimlərinə minnətdarlıqlarını bildirərək, öz fəaliyyətləri ilə onların etimadını daimi doğruldacaqlarına, doğma ali məktəbin adını həmişə uca tutacaqlarına söz verdilər.

Tədbirin sonunda bütün fakültələr üzrə təhsildə əldə etdikləri yüksək nəticələrə, universitetin ictimai-siyasi həyatında fəal iştiraklarına görə bir qrup tələbəyə rektor, professor Yusif Yusibovun əmri ilə fəxri fərmanlar verildi. Bir qrup tələbələrin valideynlərinə isə təşəkkür məktubu ünvanlandı.

Musiqi fənləri kafedrasının tələbələri və digər ifaçıların musiqi çələngləri "Məzun Günü"nə rəngarənglik bəxş etdi. Tədbir müəllim, valideyn və məzunların birgə şən rəqsləri ilə yekunlaşdı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün nəzərdə tutulan yaşayış binasının tikintisi davam edir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə Bakı şəhəri, Nizami rayonu, B.Çobanzadə küçəsi, 2399 ünvanında Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün nəzərdə tutulan yaşayış binasının inşası davam edir. Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən aldığım məlumatda dildirilir ki, inşaat işləri tamamlandıqdan sonra binadakı mənzillər növbəlilik prinsipi əsasında Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə təqdim olunacaq. Binadakı mənzillərin istifadəyə verilməsi rayon (şəhər) icra hakimiyyətləri tərəfindən nazirliyə təqdim olunmuş və nazirliyin rəsmi saytında (www.mlspp.gov.az) yerləşdirilmiş növbəlilik siyahıları əsasında həyata keçiriləcək.

Onu da bildirək ki, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə adıçəkilən ünvandan başqa heç bir ərazidə yaşayış binası tikilmir. Xətai rayonu, N.Tusi küçəsi, 63 ünvanında yaşayış binalarının inşası və mənzillərin əlil olmayan şəxslərə verilməsi barədə son vaxtlar bəzi kütləvi informasiya vasitələrində yayılan məlumatların heç bir əsası yoxdur. Nazirli-



yin fəaliyyəti ilə bağlı məlumat yaymazdan öncə dəqiqləşdirmə aparılması təklif olunur.

**Mustafa KAMAL,**
**"Respublika".**

## Qazaxlı nümayəndələr Trakay şəhərində keçirilən "Trakay yayı-2018"adlı bayramda



Son iki ildə Qazax rayonunun sosial-iqtisadi göstəricilərində artan dinamika müşahidə olunmaqla bərabər, rayonun beynəlxalq əlaqələri də genişlənir. Ötən il may ayının 14-18-də Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Litva Parlamentlərarası işçi qrupunun rəhbəri Kamran Nəbizadə, Qazax Rayon İcra Hakimiyyəti başçısının Qazax şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Akif Vəliyev, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının icraçı katibi Tofiq Həsənovdan ibarət nümayəndə heyəti Litva Respublikasının Trakay şəhərində olmuşlar. Nümayəndə heyəti may ayının 15-də Trakay rayon meriyasının sədri Edita Rudelene tərəfindən qarşılanmışdır. Sonra Qazax rayonu ilə Litva Respublikasının Trakay rayonu arasında təhsil, mədəniyyət və tarix, idman, turizm, biznes, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi məqsədilə əməkdaşlıq sazişi imzalanmışdır. Həmçinin, 21 iyun 2017-ci il tarixdə Trakay rayon bələdiyyəsinin meri Edita Rudelene və nümayəndə Rudelis Henrikas Qazax rayonuna səfər etmişlər. Qonaqlar səmimiyyətlə qarşılanmışlar. Əvvəlcə rayon icra hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyətinin başçısı və işçi qrupunun üzvlərinin iştirakı ilə görüş keçirilmişdir. Sonra qonaqlar rayonun gəzməli və görməli yerlərində olmuşlar. Litvalı qonaqlara ingilis və rus dillərində Qazax rayonunun tarixi, mədəni həyatı, rayonda aparılan tikinti, quruculuq və abadlıq işləri barədə geniş məlumatlar verilmiş, onlarda Qazax, Azərbaycan haqda xoş təəssüratlar formalaşdırılmışdır.

Qeyd etmək lazımdır ki, 2018-ci ildə Litvanın 100 illiyi qeyd olunur. Bu münasibətlə 01-03 iyun 2018-ci il tarixlərində Trakay şəhərində "Trakay yayı - 2018" adlı bayram şənliyi keçirilmişdir. Bayram tədbirində Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova, rayon icra hakimiyyəti başçısı aparatında baş məsləhətçi Sərdar Orucov və rayon icra hakimiyyəti başçısı aparatında məsləhətçi Səba Paşayeva iştirak etmişlər.

Qazaxlı nümayəndələr Trakay şəhərinin meri Edita Rudelene tərəfindən yüksək səviyyədə qarşılanmışlar. Rəsmi ziyafətdə Trakay şəhərinin meri Edita Rudelene qonaqları salamlamış və geniş məruzə ilə çıxış etmişdir. Hədiyyələr mübadiləsi zamanı nümayəndələr Qazax xalçası, üzərində "Damcılı bulağı" və "Göyəzən dağı" əks olunmuş suvenirləri merə təqdim etmişlər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

## Bölgə xəbərləri

### Ağdam

Su təsərrüfatı və meliorasiya işçiləri günü münasibətilə Quzanlı qəsəbəsində tədbir keçirilib. Rayon mexaniki suvarma idarəsinin kollektivi qəsəbədə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildiriblər.

Yığıncaqda məlumat verilib ki, cəbhə bölgəsində yerləşən rayonda son 5 ildə 124 yeni subartezian quyusu qazılaraq istifadəyə verilib. Dövlətimizin başçısının "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 12 mart tarixli Sərəncamına əsasən, rayonun 11 yaşayış məntəqəsində 17 subartezian quyusunun qazılmasına başlanılıb.

Tədbirdə mexaniki suvarma idarəsinin rəisi Hafiz Əzimzadə və başqaları çıxış edərək meliorasiya və su təsərrüfatı işçilərini peşə bayramları münasibətilə təbrik edib, bu sahənin inkişafından, respublikamızda ərzaq bolluğunun yaranmasındakı rolundan, əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində əldə olunan uğurlardan danışıblar.

Bildirilib ki, Azərbaycanda meliorasiya və irriqasiyanın inkişafına ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə nail olunub. Ulu öndər Heydər Əliyevin ölkədə meliorasiya və su təsərrüfatının inkişafına göstərdiyi qayğı hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Məlumat verilib ki, Ağdam mexaniki suvarma idarəsi rayonda 35 min 400 hektar əkin sahəsini suvarma suyu ilə təmin edir. Rayon ərazisində əkin sahələrinin suvarılması 844 subartezian quyusu, 4 nasos stansiyası, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalları vasitəsilə həyata keçirilir.

Tədbirin sonunda işində fərqlənən meliorasiya və su təsərrüfatı işçilərinə Fəxri fərmanlar təqdim edilib.

### Ağcabədi

Bir neçə gündür ki, rayonda barama tədarükünə başlanılıb. Artıq kümçülərin yetişdirdikləri 4024 kiloqram barama "Şəki İpək" ASC-nin nümayəndələri tərəfindən qəbul edilib.

Bu il rayonun 41 yaşayış məntəqəsində 502 ailə tərəfindən 780 qutu (14 min 820 qram) ipəkqurdu toxumu bəslənilib. Cari mövsümdə Ağcabədidə 30 tondan artıq barama tədarükü gözlənilir.

Qeyd edək ki, 2016-cı ildə Ağcabədi rayonunda 3675 kiloqram, 2017-ci ildə isə 16 min 761 kiloqram yaş barama istehsal edilərək "Şəki-İpək" ASC-yə təhvil verilib. Barama istehsalını artırmaq məqsədilə rayon ərazisində 2016-cı ildə 50 min ədədi Çin Xalq Respublikasından gətirilmiş, 23 min 700 ədədi isə yerli olmaqla, 73 min 700 ədəd, 2017-ci ildə isə ümumilikdə 135 min çəkil (tut) tingi əkilib.

### Xocavənd

Uzun illərdən bəridir ki, məcburi köçkün həyatı yaşayan rayon əhalisinin böyük əksəriyyəti Beyləqan rayonu ərazisində salınmış qəsəbələrdə məskunlaşıb. Dədə-babadan heyvandarlıqla, üzümçülüklə, baramaçılıqla məşğul olan xocavəndlilər təsərrüfatın müxtəlif sahələrində çalışaraq ailələrinə ruzi qazanıblar. Respublikamızda kənd təsərrüfatının, o cümlədən baramaçılığın inkişaf etdirilməsinə dövlət dəstəyinin artırılması rayon əhalisi tərəfindən ruh yüksəkliyi ilə qarşılanıb.

Rayon kənd təsərrüfatı idarəsinin rəisi Rafayel Mustafayev bildirdi ki, ərazidəki qəsəbələrdə 4500 nəfər yaşayır ki, onunda 2740 nəfəri kənd təsərrüfatı işləri ilə məşğul olur. Ötən ildən kənd əməkçiləri dövlətimizin başçısı cənab İlham Əliyevin qaldırdığı təşəbbüsə qoşularaq rayonumuzun tarixində ilk dəfə pambıq əkiblər. Bu il 97 hektar ərazidə pambıq əkilib. Hazırda becərmə işləri aqrotexniki qaydada aparılır.

Rayonda baramaçılığın inkişaf etdirilməsinə dövlət tərəfindən güzəştlərin tətbiq edilməsi adamlarda bu sahəyə marağı xeyli artırıb. Kümçülər Nəsimi Tahirov, Yaşar Mustafayev, Rafayel Qarayev, Namiq Mustafayev və başqaları daha çox barama tədarük etməyi qarşılarına məqsəd qoyublar. Artıq rayonda barama tədarükünə başlanılıb.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# BƏRDƏ: TƏDRİS İLİ UĞURLA BAŞA ÇATDI

Bərdə hərtərəfli inkişaf tempinə görə respublikada ön sıralarda gedən rayonlardan biridir. Bütün sahələrlə yanaşı, təhsil sistemi də yüksələn dinamika ilə irəliləyir. Rayonda təhsilin hazırkı durumu ilə bağlı **Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifovla** həmsöhbət olduq. Əməkdar müəllim Rzaqulu Şərifov kifayət qədər pedaqoji təcrübəyə malikdir. O, 1973-cü ildən əmək fəaliyyətinə başlamış rayonun Piyadalar kəndində ümumi orta, Kətəlparaq kənd tam orta və akademik Zərifə Əliyeva adına Bərdə Şəhər Texniki fənlər təmayüllü məktəb-liseydə direktor vəzifələrində çalışmışdır. 2013-cü ildən Bərdə Rayon Təhsil Şöbəsinin müdiri işləyir.

Qeyd etmək lazımdır ki, Zərifə Əliyeva adına Bərdə Şəhər Texniki fənlər təmayüllü məktəb-lisey həmin dövrdə iki dəfə ilin ən yaxşı məktəbi müsabiqəsinin qalibi olmuşdur. Bərdə rayonunda 74 ümumtəhsil məktəb: 5 ibtidai, 10 ümumi orta, 59 tam orta məktəb və 2 məktəbdənkənar müəssisə fəaliyyət göstərir.

Söhbət zamanı R.Şərifov bildirdi ki, hələ Azərbaycanın Sovetlər Birliyinin tərkibində olduğu dövrdə ölkəmizə olunan təzyiqlərə baxmayaraq bu sahənin inkişaf etdirilməsi, milli kadrların yetişdirilməsi, gənclərin inkişaf etmiş bir sıra xarici ölkələrdə təhsil alaraq vətəndə əmək fəaliyyətini davam etdirmələri üçün ulu öndər tərəfindən misilsiz işlər görülmüşdür. Lakin Azərbaycan 2-ci dəfə müstəqillik əldə etdikdən sonra səriştəsiz insanların hakimiyyətə gəlişi ilə bütün sahələrdə olduğu kimi təhsildə də xoşagəlməz vəziyyət yarandı. Ümummilli lider Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan təhsili özünün tərəqqi dövrünü yaşadı. Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyevin imzaladığı sərəncam və qərarlara əsasən təhsil sahəsində bir çox layihələr həyata keçirilir. Son 15 ildə respublikamızda hər il milli təhsilin inkişaf etdirilməsi üçün onlarla təhsil müəssisələri inşa olunur və ya əsaslı təmir olunaraq istifadəyə verilir. Sözsüz ki, bu istiqamətdə aparılan islahatlarda Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti danılmazdır. Fondun maliyyə dəstəyi ilə ən ucqar yaşayış məntəqələrində belə yararsız məktəblər tarixə qovuşmuş, əvəzində müasir tədris ocaqları tikilib istifadəyə verilmişdir.

Təhsildə aparılan islahatlar Bərdə rayonundan da yan keçməmişdir. Son 10 ildə rayonda 18 yeni təhsil müəssisəsi inşa olunmuş, 11 məktəb isə əsaslı təmir olunaraq istifadəyə verilmişdir. 2015-ci ildə rayon Təhsil Şöbəsinin yeni inzibati binası tikilərək istifadəyə verilmişdir. Binada əməkdaşların normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Məktəblərin hamısı lazımi avadanlıq və İKT sistemi ilə təchiz edilmişdir. 2017-2018-ci tədris ilində müəllimlərin işə qəbulu xətti ilə Təhsil Nazirliyi tərəfindən 147 nəfər müəllim göndərilmişdir. Yeni kadrlara həvəsləndirmə tədbirləri çərçivəsində müavinətlər verilmiş, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirlər görülmüşdür. 2017-2018-ci tədris ilində Bərdədə 1725 nəfər 11-ci sinfi bitirmiş, bundan 715 nəfəri qəbul üçün sənəd təqdim etmiş, 456 nəfər (64%) keçid balını toplamışdır. Ötən tədris ilində 105 nəfər 500-dən yuxarı bal toplayaraq nüfuzlu təhsil ocaqlarına qəbul olmuşlar. Cari ildə ikinci mərhələ imtahan keçiriləndən sonra 500-600-dən yuxarı bal toplayanların sayının ötən illə müqayisədə artacağı gözlənilir. Rayonda gənclərdə hərbi-vətənpərvərlik ruhunun yüksəlməsi üçün mütəmadi olaraq təhsil müəssisələrində tədbir keçirilir. Məhz bunun nəticəsidir ki, son 5 ildə 80 nəfərdən çox məzun Ali hərbi məktəb və



hərbi liseylərə qəbul olunmuşlar. Bərdə məktəbliləri fənn olimpiadalarında da yüksək nəticələr əldə edirlər. Mart ayında Mingəçevir şəhərində olimpiadanın zona yarışında 73 nəfərdən 8 nəfəri Respublika turunda iştirak etmək şansı qazanmışlar. Sevindirici haldır ki, 04-06 may tarixində Bakı şəhərində keçırılən turda Bərdə şəhər 5 saylı tam orta məktəbinin X sinif şagirdi Təhmin Muradov biologiya fənni üzrə qızıl medala, Şahvəllər kənd tam orta məktəbin VIII sinif şagirdi Hüseyn Babayev isə bürünc medala layiq görülmüşdür. 03 may 2018-ci ildə Heydər Əliyevin 95-ci ildönümünə həsr olunmuş intellektual bilik yarışmasında 16 kənd və şəhər komandaları iştirak etmiş, qaliblər mükafatlandırılmışlar. Cari ilin 14-17 mart tarixində Bakı şəhərində "Əlaçı" televiziya yarışmasında 8 nəfər X sinif şagirdi iştirak etmişdir. İştirakçı Təhmin Muradov qalib olaraq "Əlaçı" diplomunu qazanmış və Super finalda II yerə layiq görülmüşdür.

Rayon məktəbliləri arasında mütəmadi olaraq inşa və şeir müsabiqələri keçirilir. Mart ayının 28-də Bərdə RTŞ-də "Heydər Əliyev-95 ən yaxşı təqdimat" mövzusunda müsabiqə keçirilmişdir. Müsabiqədə 2 saylı Nazırlı kənd tam orta məktəbin XI sinif şagirdi Mehdiyeva İlahə I yerə layiq görülərək respublika turuna vəsiqə qazanmış, respublika turunda isə üçüncü yerə layiq görülmüşdür. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" və 28 May - Respublika Günü münasibətilə keçirilən şeir müsabiqəsində Samux kənd tam orta məktəbin XI sinif şagirdi Hüseynov Ramil və şəhər 3 saylı tam orta məktəbin X sinif şagirdi Camalzadə Ayşən birinci yerə çıxmışlar.

Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin diaqnostik qiymətləndirilməsində Bərdə müəllimləri yüksək nəticələrə nail olmuşlar.

Söhbətin sonunda Rzaqulu Şərifov bildirdi ki, əldə olunan nailiyyətlər heç də Bərdə təhsil işçilərini qane etmir, daha yüksək nailiyyətlər əldə etməyi qarşılarına məqsəd qoymuşlar.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Şəkidə aqrar sahənin inkişafı diqqət mərkəzindədir

**Son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində kənd təsərrüfatının prioritet istiqamətləri müəyyən edilmişdir. Həmin tədbirlər davamlı olaraq həyata keçirilir. 2018-ci ildə aqrar sahənin perspektiv inkişafı ilə əlaqədar qəbul edilmiş mühüm Dövlət proqramları və digər dövlət büdcəsinin vəsaiti hesabına icrası nəzərdə tutulmuş sərəncamlar və qərarlar yaxın vaxtlarda ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satılmasında mühüm müsbət dəyişikliklərin olacağına zəmin yaradır.**

Respublikanın digər rayonlarında olduğu kimi, Şəki rayonunda dövlət başçısı cənab İlham Əliyevin imzaladığı fərman, Dövlət Proqramları və sərəncamların icrasını təmin etmək məqsədi ilə məqsədyönlü tədbirlər görülür.

Şəki Kənd Təsərrüfatı İdarəsindən aldığımız məlumatda da rayonda kənd təsərrüfatı sahəsində mühüm işlər görüldüyü qeyd olunur. 2017-ci ilin payızında 2018-ci ilin məhsulu üçün 67 121 hektar sahədə dənli bitkilərin əkini aparılmışdır. Həmin əkinlərin 45 115 hektarını buğda, 21 653 hektarını dən üçün arpa, 353 hektarını isə xəsil arpa təşkil edir. Hesabat dövründə həmin sahələrə 1656 ton yemləmə məqsədi ilə azot gübrəsi verilmişdir. "Aqrolizinq" ASC-nin Şəki Regional nümayəndəliyindən sahələrdə alaq otları ilə mübarizə aparılması üçün 241 kq toz halında, 5677 litr maye halında herbisid alınaraq işlədilmişdir.

Rayonun payızlıq taxıl sahələrində 34500 ha-da fitosanitar müşahidələr aparılmış, 33400 ha sahədə sirayətlənmə aşkar edilmiş və fermerlərin vəsaiti hesabına bu günə qədər 31600 ha sahədə kimyəvi mübarizə aparılmışdır. Kimyəvi mübarizədə ikiləpəli və birləpəli alaq otlarına qarşı tətbiq edilən Diamin (1.5-2 l/ha), Qranlland (0.020 kq/ha) və Topçup (0.3 l/ha) herbisidlərindən istifadə edilmişdir. Həmin herbisidlər "Aqrolizinq" ASC tərəfindən fermerlərə 70 faiz güzəştlə satılmışdır.

Rayonun 580 ha əkin və qeyri-əkin sahələrində karantin alaq otu olan yovşanyarpaqlı ambroziyaya qarşı fitosanitar müşahidələr aparılmışdır.

Yanvar-mart aylarında rayonun meyvə və tərəvəz məhsullarının pərakəndə və topdan satış mərkəzlərində, taxıl məhsulları anbarlarında fitosanitar monitorinqlər keçirilmiş, fitosanitar tələblərə cavab verməyən məhsullar satışdan çıxarılmış və tərəfimizdən zərərsizləşdirilmişdir.

Cari ildə rayonun 14 inzibati ərazi dairəsində 1980 nəfər istehsalçı tərəfindən 860 hektar sahədə tütün əkilməsi proqnozlaşdırılmışdır. Bu məqsədlə istehsalçılardan 1296 nəfəri "İNTER TOBOCCO" MMC ilə müqavilə bağlamışdır. Tütün şitilinə olan tələbatın ödənilməsi məqsədi ilə 358880 kvadratmetr sahədə istixana salınmışdır. "Aqrolizinq" ASC-nin Şəki nümayəndəliyinin anbarlarında tələbatın ödənilməsi məqsədi ilə mineral gübrələr tədarük olunmuşdur. Hazırda tütün şitilinin sahələrə köçürülməsi üçün sahələr hazırlanır.

Cari ildə rayonun 21 inzibati ərazi dairəsi üzrə 185 nəfər barama istehsalçısı tərəfindən barama toxumuna, tut ipəkqurduna və tut ağacına (çəkil) olan tələbat barədə kənd ərazi komissiyalarına müraciət daxil olmuşdur. Həmin müraciətlər əsasında toplanmış sənədlər Kənd Təsərrüfatı Nazirliyinə göndərilmişdir.



Rayon ərazisində bir neçə kəndin bələdiyyə torpaqlarından "Şəki İpək" ASC-yə uzun müddətə icarəyə verilmiş sahələrdə əvvəlki illərdə əkilən toxmaçar bağları mövcuddur. Hazırda həmin bağlarda mövcud vəziyyət aşağıdakı kimidir.

Şəki Bələdiyyəsinin "Yemçilik" adlı ərazisində 2 hissədən ibarət olmaqla (40 hektar və 25 hektar) 65 hektar sahədə əvvəlki illərdə tut tingi əkilmişdir. Sahənin kənarı kanalla mühafizə olunmuş, normal bitki var.

Rayonda 238 hektar toxmacar bağı mövcuddur, ondan 150 hektarı köhnə bağlardır. Mövcud bağlar əsasən "Şəki İpək" ASC-nin istifadəsində torpaq sahəsindədir. Normal şəkildə becərilmiş bar verən tut bağlarının hər hektarında olan yarpaq məhsulu ilə 4-5 qutu ipəkqurdunun yemləndirilməsi mümkündür.

Bundan başqa, 2016-cı ilin dekabr ayında ÇXR-dən gətirilmiş və Kənd Təsərrüfatı Nazirliyinin bölgüsü əsasında rayon verilmiş 25000 ədəd tut tingləri rayonun 5 İƏD-nin ərazisində (Suçma - 5000 ədəd (0.5 hektar), Böyük Dəhnə - 5000 ədəd (0.5 hektar), Aşağı Göynük - 5000 ədəd (0.5 hektar), Baş Göynük - 5000 ədəd (0.5 hektar) və Şəki şəhər ərazisində - 5000 ədəd (0.5 hektar) olmaqla 5 istehsalçı arasında bölünmüş və 2.5 hektar sahədə təlimata uyğun qaydada əkin işi aparılmışdır.

2017-ci ilin dekabr ayında ÇXR-dən gətirilmiş 67000 ədəd tut tingləri bölünərək rayonun 14 inzibati ərazisində əkilmişdir. Həmin bağlardan yem bazası kimi 2-3 ildən sonra istifadə etmək mümkündür.

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planında icrası qarşıya qoyulmuş bir sıra məsələlərlə birgə barama istehsalçıları, tədarükçüləri və emal müəssisələri arasında kooperasiyanın dəstəklənməsi, barama istehsalçıları assosiasiyasının yaradılmasının dəstəklənməsi, baramaçılığın yem bazasının genişləndirilməsi məqsədi ilə yeni tut (çəkil) tingliyi təsərrüfatının yaradılmasının və yeni tut (çəkil) bağlarının salınmasının dəstəklənməsi, mövcud və yeni salınmış tut (çəkil) bağlarının su təminatının yaxşılaşdırılması, suvarma şəbəkələrinin qurulması, barama istehsalı ilə məşğul olan şəxslərə subsidiya verilməsinin davam etdirilməsi, qabaqcıl barama istehsalçılarının nailiyyətlərinin təşviqi də nəzərdə tutulmuşdur.

Odur ki, rayonda baramaçılığın və ipəkçiliyin inkişaf etdirilməsi məqsədi ilə mövcud tut tinglərinin əkildiyi sahələrə aqrotexniki qulluq işlərinin vaxtında və keyfiyyətlə aparılması məqsədi ilə həmin sahələr kümçüklərlə məşğul olan təsərrüfatlar arasında bölüşdürülmüş, sahələrin suvarma suyuna olan tələbatının ödənilməsi məqsədi ilə müvafiq tədbirlər görülmüş, iri tut tingi əkilən sahələrdə kümxanalar tikilməsi nəzərdə tutulmuş, uzun müddət baramaçılıqla məşğul olan kümdarların təcrübəsindən istifadə olunması və təşviqi məqsədi ilə müəyyən vaxtlarda seminarlar keçirilmişdir. Barama istehsalının artırılması məqsədi ilə digər məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün kümçülüklə məşğul olan kümdarlar arasında maarifləndirmə işləri mütəmadi olaraq davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasında "Regionların sosial-iqtisadi inkişafına dair (2014-2018-ci illər) Dövlət Proqramı"nın icrasının 4-cü ildönümünə həsr olunmuş iclasında elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqinin sürətləndirilməsi ilə bağlı tapşırıqlarını vermişdir.

Ötən müddət ərzində rayon üzrə 11014 nəfər istehsalçının subsidiya aldığı sənədləri EKTİS-nə skan olunmuş, 10800 nəfər istehsalçının sənədləri Excel proqramına işlənilmişdir. Skan edilmiş sənədlərin 13705 ədədi Dövlət Aktı, 2098 ədədi Reyestrdən çıxarış, 94 ədədi isə Şəhadətnamə olmuşdur. Ümumilikdə rayon üzrə (ərizə və əlavəsi, baxış aktı, şəxsiyyət vəsiqəsi, icarə müqaviləsi və s.) 40845 vərəq sistemə işlənilmişdir. Skan edilmiş sənədlərin sayı 65443 ədəddir. Həmin sənədlər elektron qaydada 56742 fayldan ibarətdir.

2017-2018-ci illərdə 5400 konturdan ibarət Gis xəritələr işlənmiş 9420 hektar sahə sistemə işlənilmişdir. Qeydiyyata alınmış istehsalçıların sayı 2926 nəfər olmuşdur.

Hazırda qarşıya qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə işlənərək EKTİS-nə qeydiyyata alınması üçün müvafiq tədbirlər görülür.

Şəki Rayon Baytarlıq İdarəsi tərəfindən Epizootiya əleyhinə mübarizə və müalicə profilaktiki tədbirlər planı əsasında 2018-ci ilin I rübündə 18840 baş iribuynuzlu, 47 baş xırdabuynuzlu heyvanlardan qan nümunələri götürülərək Şəki Zona Baytarlıq Laboratoriyasında bruselyoz xəstəliyinə görə müayinə edilmişdir.

Hesabat dövründə 2184 baş iribuynuzlu heyvanlarda vərəm xəstəliyinə qarşı allergiki müayinə, 68319 baş iribuynuzlu, 2982 baş təkdırnaqlı heyvanlarda qara yara xəstəliyinə, 76963 baş iribuynuzlu heyvanlarda dabaq xəstəliyinin AO-Aziya-1 tipinə, 7131 baş xırdabuynuzlu heyvanlarda nodulyar dermatit, 99474 baş yaşlı quşlarda Nyukasi xəstəliyinə qarşı "H" ştamı, 189144 baş cücələrdə isə La-sota ştamı ilə, 4993 baş başı bağlı itlərdə quduzluq, 100 baş atlarda qrip və rinopnevmaniya xəstəliyinə qarşı profilaktiki peyvəndləmələr aparılmışdır.

Rayonda 75 baş iribuynuzlu, 199 baş xırdabuynuzlu heyvan diktikaukyoz, 75 baş iribuynuzlu, 199 baş xırdabuynuzlu heyvan fassilyoz, 121 baş xırdabuynuzlu heyvanlar monezioz və tizaneizoz xəstəliyinə qarşı kaproloji müayinələr aparılmışdır. Rüb ərzində 24021 kvadratmetr sahədə dezinfeksiya işləri aparılmışdır.

Bir sözlə, bu gün Şəkidə aqrar sahənin bütünlükdə inkişafı, dövlət dəstəyi ilə daha böyük uğurlar əldə etmək üçün bütün qüvvələr səfərbər edilmişdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# Aqrar sahə və qarşıda duran vəzifələr

**Kənd təsərrüfatı ölkənin sosial-iqtisadi və siyasi problemlərinin həllində, xüsusən regionlarda yaşayan insanların məşğulluğunda müstəsna rol oynayır. Azərbaycanda qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılması, ölkənin davamlı inkişafı çox vacibdir. Son illər ölkədə aparılan aqrar islahatlardan sonra Azərbaycanda bəzi məhsullar üzrə məhsuldarlığın artırılması və idxalın yerli istehsalla əvəzlənməsi sahəsində müsbət təcrübə əldə edilmişdir.**

90-cı illərin əvvəlində aqrar məhsulun həcmi 58 faiz aşağı düşmüşdür. İctimai təsərrüfat sistemi bazar iqtisadiyyatı tələblərinə dözməyərək sürətlə iflasa uğrayırdı. Aqrar-sənaye kompleksində toplanmış potensial maddi-texniki baza dağıdılmışdı. Heydər Əliyevin gərgin fəaliyyəti, müdrik rəhbərliyi, həyata keçirdiyi ardıcıl və cəsarətli tədbirlər nəticəsində o illərdə aqrar sahə ilə əlaqədar 100-dən çox normativ hüquqi akt qəbul olunmuşdur. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyadan qaynaqlanan, reallıqları nəzərə alan məqsədyönlü, çevik sosial-iqtisadi siyasətin nəticəsidir ki, bu gün Azərbaycan sürətlə inkişaf edir və həyatın bütün sahələrində ciddi dəyişikliklər müşahidə olunur. Azərbaycanda dövlət səviyyəsində aqrar sahənin inkişafı diqqət mərkəzindədir. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır, yeni texnikalar alınır, dövlət tərəfindən subsidiyalar ayrılır, aqroxidmət sahələri yaradılır, güzəştli şərtlərlə gübrə, yanacaq, lizinqlər verilir. Sahibkarlara güzəştli şərtlərlə verilən kreditlər hesabına yeni aqrar istehsal sahələri yaranır.

Kənd təsərrüfatının inkişafının rəqəmlərlə ifadəsinə gəldikdə isə, aqrar sahəyə göstərilən qayğı və dəstəyin nəticəsində ölkədə kənd təsərrüfatı məhsullarının istehsalında artım mövcuddur.

Pambıq istehsalı iki il ərzində demək olar ki, səkkiz dəfə artıb. 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min ton, 2015-ci ildə isə 35 min ton pambıq yığılıbdır. Fındıq istehsalı mümkün olan rayonların müəyyənləşdirilməsi və bu rayonlarda fındıqçılığın sürətlə inkişaf etdirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilib, Zaqatala, Balakən, Xaçmaz, Qax, Quba, Qusar, İsmayıllı, Qəbələ, Şabran, Oğuz rayonlarında və Şəki şəhərində 10,7 min hektar sahədə yeni fındıq bağları salınıb.

Aqrar sahədə uğurların əldə edilməsi, ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatı ilə bağlı möhkəm əsasların yaradılması, bu sahənin ali təhsilli mütəxəssislərlə təmin edilməsini, aqrar sahənin elmi təminatının yüksəldilməsini zəruri etdiyindən bu məsələlər dövlətimizin aqrar siyasətində əsas yer tutmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət Proqramının "Aqrar sahənin elmi təminatı" bölməsində qeyd olunur ki, aqrar elmin əsas məqsədi tədqiqatların regionlar üzrə təsərrüfat fəaliyyətinin prioritet istiqamətlərinə uyğunluğu təmin etmək, mövzu planlarını sahibkarların tələbləri əsasında formalaşdırmaq, tədqiqatın nəticələrinin tətbiqi və yayılması sistemini təkmilləşdirmək, elmin maddi-texniki bazasını və kadr potensialını gücləndirməkdən ibarətdir.

Təhsil sahəsində aparılan islahatlar, qəbul olunan Dövlət proqramları, Azərbaycanda təhsilin inkişafı üzrə Milli Strategiyanın hazırlanması bir daha təhsilin dövlət başçısının diqqət mərkəzində olduğunun göstəricisidir. Qəbul olunmuş Dövlət proqramlarında təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsini də əsas istiqamətlərdən biri kimi qeyd etmək lazımdır.

Azərbaycanın Dövlət Aqrar Universiteti ölkəmizdə yeganə ali təhsil müəssisəsidir ki, aqrar sahə üçün mütəxəssis hazırlayır. Bu baxımdan universitetin inkişafı məqsədilə dövlət tərəfindən ayrılan maliyyə vəsaiti hesabına genişmiqyaslı işlər həyata keçirilib.

Universitetin hazırkı zəngin maddi-texniki bazası, son illərdə tədris korpuslarının müasir standartlara uyğun təmiri, yeni tədris laboratoriyalarının yaradılması, yüksək zövqlə inşa edilib istifadəyə verilən tələbə yataqxanası bütün standartlara cavab verir. Məqsəd mütəxəssis hazırlığının keyfiyyətini daha da yaxşılaşdırmaqdır.

ADAU-nun professor-müəllim heyəti və tələbələri Türkiyə, Norveç, Almaniya, Yaponiya, Belarus, Qırğızıstan, Çin Xalq Respublikası və s. ölkələrin qabaqcıl ali təhsil müəssisələrində konfranslarda, simpoziumlarda və təcrübə mübadilələrində olurlar.

Universitetdə respublikanın və dünyanın müxtəlif ali təhsil, elmi-tədqiqat müəssisələrində fəaliyyət göstərən tədqiqatçı alimlərin iştirakı ilə mütəmadi olaraq beynəlxalq elmi-praktik konfranslar keçirilir ki, burada da məqsəd aqrar sahənin inkişafına təkan vermək, onun modernləşdirilməsini sürətləndirməkdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru professor, AMEA-nın müxbir üzvü İ.Cəfərovun elm sahəsində təşkilatçılığı ilə işgüzarlığı təqdirəlayiqdir. Bu yaxınlarda ABŞ-ın Texas Universitetinin əməkdaşları - pambıqçılıq üzrə mütəxəssis professor Stevn Haque, məsləhət xidməti mütəxəssisi, professor Josh Mc Ginty ADAU-ya səfər ediblər. Səfərin məqsədi pambıqçılıq sahəsində birgə elmi-tədqiqat və tədris layihələrinin həyata keçirilməsi məsələlərinin müzakirəsi olub.

Qarşılıqlı müqavilə əsasında Kabardin-Balkar Dövlət Aqrar Universitetinin müəllim və tələbə heyəti ADAU-ya səfər etmişdir. Müəllimlər baytarlıq və baytarlıq sanitar ekspertizası üzrə müvafiq kurslarda mühazirələr söyləmişlər. Universitetin rektoru AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qonaqları qəbul etmiş, universitetin tarixi və bu günü haqqında müəyyən məlumatlar vermiş, aqrar sektorun kadr təminatında bu universitetin rolundan danışmışdır. Bakalavr və magistr hazırlığı, müəllim mübadiləsi, ikili beynəlxalq konfransların təşkili və sair barədə konkret razılıq əldə edilmişdir.

Son illər ADAU-nun maddi-texniki bazasının əsaslı şəkildə yenidən qurulması tədris və elmi-tədqiqat işlərinin keyfiyyətinə müsbət təsir göstərmişdir. Bu da bölgələrdə fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarına məsləhət xidmətlərinin göstərilməsinə geniş imkanlar yaratmışdır. Bu məqsədlə universitetin rektoru İ.Cəfərovun müvafiq əmrilə "Aqrar məsləhət xidməti" yaradılmışdır ki, Aqronomluq fakültəsinin təcrübəli professor-müəllim heyəti bölgələrdə fermerlərin problemləri ilə tanış olur, təsərrüfatlarda məhsul istehsalının artırılması üçün lazımi məsləhətlər verirlər.

Hər bir uğurlu addım üçün bir stimul gərəkdir.

Bu stimul təbii ki, dövlətlərimizin aqrar sahəyə, aqrar elmə, aqrar təhsilə göstərdiyi dəstəkdir. Müdriklərdən birinin belə bir kəlamı var. Vətənə məhəbbət mücərrəd anlayış deyil, o, təşkilatçılıq, inkişaf, mədəniyyət tələb edən real mənəvi qüvvədir. ADAU-nun rektoru, professor, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov özündəki, real mənəvi qüvvədən istifadə edərək fəaliyyəti dövründə vətənə, dövlətə, dövlətçiliyə sədaqətini hər addımda sübuta yetirmişdir.

Bu gün Heydər Əliyevin qoyduğu siyasi kurs etibarlı əllərdədir. Kənd təsərrüfatı dinamik inkişafa başlamış, əhalinin gəlirləri yüksəlmiş, makroiqtisadi sabitliyə nail olunmuşdur. Aqrar sahənin inkişafı baxımından qarşıya qoyulan vəzifələr artan imkanlara əsaslanır.

Aqrar sahədə əldə olunan nailiyyətlər bizi arxayınlaşdırmamalıdır. Bu sahədə biz bilikli alimlərimizin, təcrübəli fermerlərin təcrübəsindən səylə istifadə etməliyik, necə deyərlər, nəzəriyyə ilə praktika vəhdət təşkil etsin. Beləliklə kənd təsərrüfatında yüksək məhsul bolluğu əldə etmək olar. Bunun üçün informasiya vasitələri də mətbuat, radio və televiziyalar da öz səy və bacarıqlarını əsirgəməməlidirlər.

**Oruc ABDULLAYEV,**
**fəlsəfə elmləri doktoru,**
**professor.**

# Sərhəd kəndlərində heyvanların profilaktik peyvəndlənməsi

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) rəisi vəzifəsini müvəqqəti icra edən Bayandur Rzayev ölkəmizin Qərb bölgəsinin — Qazax, Tovuz və Goranboy rayonlarının sərhəd kəndlərində səfərdə olub. Səfər əhalinin fərdi təsərrüfatlarında saxlanılan heyvanların xəstəliklərə qarşı profilaktik peyvəndlənməsi, şəffaflığın təmin edilməsinə nəzarət və heyvan sahibləri ilə görüşlər keçirmək məqsədi ilə təşkil olunub.**

Səfər çərçivəsində B. Rzayev Ermənistanla həmsərhəd olan Qazax rayonunun Məzəm kəndində, həmçinin digər cəbhəyanı ərazilər - Tovuz rayonunun Əlibəyli və Yuxarı Öysüzlü kəndlərində, Goranboy rayonunun Tapqaraqoyunlu kəndində fermer və sahibkarla görüşüb. B.Rzayev xırdabuynuzlu heyvanların "Rev-1" ştammı, iribuynuzlu heyvanların "S-19" ştammı ilə brusellyoz xəstəliyinə qarşı profilaktiki peyvəndləmə tədbirlərinin aparılması, brusellyoz və iribuynuzlu heyvanların yoluxucu nodulyardermatit xəstəliklərinə, xırdabuynuzlu heyvanlarda dabaq xəstəliyinin A, O tiplərinə qarşı aparılan peyvəndləmə tədbirlərinə nəzarət məqsədi ilə baytarlıq baxışı keçirib.



Görüşlərdə B.Rzayev heyvanların sağlamlıq durumuna dair aparılan baytarlıq tədbirlərinin keyfiyyətindən, şəffaflığın təmin edilməsi istiqamətində görülən işlərdən, heyvanların baytarlıq-sanitariya qaydalarına uyğun saxlanılmasından və peyvəndləmələrin əhəmiyyətindən danışıb. Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti bildirir ki, ölkədə iti yoluxucu xəstəliklərin qarşısını almaq üçün rayon (şəhər) baytarlıq idarələri kifayət qədər dərman preparatları, dezinfeksiya və dezinseksiya maddələri ilə təmin edilib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Qəbələ: Bolluğa aparan yol torpağa qayıdışdan başlanır

Bu gün respublikamızda neftdən asılılıqdan qurtarmaq, qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafını təmin etmək üçün mövcud olan bütün ehtiyat mənbələri səfərbər olunmuşdur. Müstəqillik illərində sənaye, sosial abadlıq, tikinti-quruculuq istiqamətində əsl inkişaf yolu keçən və respublikada ən öndə gedən rayonlar sırasına çıxan Qəbələdə də bunlar aydın görünür. Yüz hektarlarla tütün plantasiyasından, üzüm, meyvə bağlarından yığılan bol məhsulla Qəbələ nəinki özünü, keçmiş ittifaqın bir sıra respublikalarını da təmin edirdi. Bəsləsən atlas olar tut yarpağından həvəsilə çalışan Qəbələ baramaçıları min tonlarla xam ipək istehsalına nail olurdular. Lakin səksəninci illərin sonunun, doxsanıncı illərin əvvəlinin məlum hadisələri aqrar bölməyə də öz güclü zərbəsini vurdu. İllər keçdikcə taxılçılıq istisna olmaqla digər bitkiçilik sahələrinə münasibət demək olar zəiflədi.



Ölkənin hər yerində olduğu kimi, Qəbələdə də qeyri-neft sektorunu bugünkü sosial-iqtisadi inkişafın zirvəsinə çatdırmaq uğrunda xoşməramlı yürüşə başlayıblar. Adamlar yaxşı bilirlər ki, torpağa məhəbbət, zəhmətə qatlaşmaq həmişə onlara firavanlıq, xoş güzəran, güclü iqtisadiyyat bəxş edir. Yenidən kəndli tarlalara şitil əkir, tütün yetişdirir, onun ən qısa müddətdə lazımi qədər gəlir verən baramaçılığa münasibəti doğmalaşıb, yeni üzüm plantasiyaları salınır. Bir sözlə, torpağa qayıdışla bolluq yarısı hər gün, hər ay və hər il yeni vüsət alır.

Yuxarıda qeyd etdiklərimizi 2017-ci ilin yekunlarını, 2018-ci ilin ötən dövrünün faktiki vəziyyətini əks etdirən konkret faktlarla şərh etsək, Qəbələdə torpağa qaydışın verdiyi bəhrələr aydın görünər. Götürək bitkiçilik sahəsini. Son illər rayonda kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda heyvandarlığın inkişafı nəzərə alınaraq yemə olan tələbatın ödənilməsi məqsədilə xeyli dəyişiklik aparılmışdır. Başqa sözlə, taxıl sahələri 1500 hektara qədər azaldılaraq həmin sahələrdə yem bitkiləri, o cümlədən silosluq qarğıdalı, vələmir, yem noxudu, yem çuğunduru, yonca, birillik otlar və sair əkilmişdir. Qəbələ fermerləri əkin sahələrini azaltmaqla daha çox məhsuldarlıq əldə etməyə üstünlük verir və yaxşı nəticələrə nail olurlar. 2017-ci ildə rayonda 67 min 917 ton taxıl istehsal olunmuşdur. Bu hər hektardan 32,1 sentner taxıl deməkdir. Torpağa qayıdışa üstünlük verən qəbələlilər ötən il 12260 ton kartof, 7602 ton tərəvəz, 3065 ton qarğıdalı, 116 ton bostan məhsulları, 13527 ton meyvə, 2065 ton üzüm istehsalına da nail ola bilmişlər.

Kənd təsərrüfatının bütün sahələrinin inkişafını təmin etmək uğrunda mübarizə aparan Qəbələ əkinçiləri bir sıra ixrac yönümlü məhsulların daha da artırılmasına xüsusi yer verirlər. Fındıqçılıq, tütünçülük bu sırada mühüm yer tutur. Hələ 2016-cı ilin payızından bu istiqamətdə çox uğurlu start götürülmüşdür. Ötən ilin sonuna kimi 2 min hektar yeni fındıq bağının salınmasını proqnozlaşdıran qəbələlilər yekunda nəzərdə tutulandan 17 hektar çox sahədə fındıq tingi əkmişlər. 2018-ci ilin birinci üç ayında daha 120 hektarda yeni fındıq bağları salınmışdır.

Qəbələdə kənd təsərrüfatı yönümlü sənaye müəssisələri də var. Təkcə ötən il rayonun 6854 hektar meyvə bağlarından, 509 hektar üzüm plantasiyalarından istehsal olunan məhsullar həm Qəbələnin bazarını, həm də onun kəndlisinin tələbatını təmin etmiş, eyni zamanda kənd təsərrüfatı yönümlü mövcud sənaye müəssisələrinin fəaliyyətinə təkan olmuşdur. Uzun illərin fasiləsindən sonra yenidən fəaliyyətə başlayan Qəbələ tütünçüləri və baramaçıları da üzərlərinə düşən vəzifələrin məsuliyyətini əməli işləri ilə doğrultmağa çalışırlar. 2017-ci ildə 70 hektarda tütün əkən qəbələlilər 97 ton quru tütün istehsalına nail olmuşlar. Bu il tütünçülüyə olan münasibətə doğmalıq bir qədər də artmışdır. 75 hektarda tütün əkməyi qərara alan qəbələlilər əkin kampaniyasını da mütəşəkkil keçiriblər. Baramaçıların işi də ürəkaçandır. 260 qutu ipəkqurdu rayonun 101 kümçüsü arasında vaxtında paylanmış, bütün kümxanalarda ipəkqurdlarına xidmət lazımi səviyyədə təşkil edilmişdir. Artıq bu gün, sabah barama yığımına başlamağa hazırlaşan kümdarlar 10,4 ton məhsul olacağına əmindirlər.

Keçmişin təsərrüfatçıları deyirlər ki, Qəbələdə böyük heyvandarlıq təsərrüfatları olub və rayon respublikada kənd təsərrüfatının bu sahəsi üzrə də o dövrə görə sözünü deyənlər sırasında gedib. İndi də heyvandarlığın inkişafı üçün güclü potensial var. Rayon üzrə 46,3 min başdan çox mal-qara, qoyun-keçi var. Mütəxəssislərlə, heyvandarlıq sahəsi ilə məşğul olan fermerlərlə söhbətimizdən öyrəndik ki, rayonda yüksək damazlıq keyfiyyətlərinə malik heyvanlar yetişdirilir. Bu isə heyvanların baş sayının azalmasına baxmayaraq, heyvandarlıq məhsulları istehsalının artırılmasına imkan verir. İlin birinci üç ayında ötən ilin eyni dövrünə nisbətən diri çəkidə ət istehsalı 7 ton, süd istehsalı 351 ton, yumurta istehsalı 2,1 milyon ədəd çoxalmışdır.

Qəbələdə 2 müasir heyvandarlıq kompleksi və 4 kiçikhəcmli heyvandarlıq təsərrüfatı fəaliyyət göstərir. Bu, rayonda əhalinin ətə və südə olan tələbatının ödənilməsinə imkan verir. Rayonda mal-qaranın cins tərkibinin, damazlıq keyfiyyətlərinin yaxşılaşdırılmasına da xüsusi fikir verilir. Qeyd olunan məsələlərə daha yaxşı aydınlıq gətirmək üçün heyvandarlıq üzrə fəaliyyət göstərən ayrı-ayrı özəl müəssisələrin, fermerlərin göstəricilərinə də nəzər salmaq yerinə düşər. Məsələn, "Aqro Kompleks Qəbələ" MMC-də 1685 baş Simmental cinsindən olan mal-qara saxlanılır. Burada 530 baş ana mal var, hər inəkdən orta hesabla 21 kiloqram süd sağılır və sutka ərzində istehsal olunan südün miqdarı 11 min kiloqramdır. Heyvandarlıq südçülük kompleksində isə 1980 baş Holştin friz cinsi bəslənilir. Burada isə hər inəkdən 30 kiloqram süd sağılır, sutka ərzində 22 min kiloqram süd istehsal olunur.

"Aqrolizinq" xətti ilə ayrı-ayrı fiziki şəxslərin aldığı cins heyvanlar da məhsuldarlığına görə fərqlənir. Məsələn, Çarxana kənd sakini Fikrət Məmmədovun aldığı Simmental cinsindən olan 82 baş mal-qaranın 80 başı sağılır və hər inəkdən 12,3 kiloqram süd əldə olunur. O, sutka ərzində 980 kiloqram süd istehsal edir. Daşca kənd sakini Səbuhi Göyüşovun da göstəriciləri ürəkaçandır. O, 19 baş Holştin friz cinsindən olan mal-qaraya xidmət edir, hər sağılan 9 baş inəkdən sutka ərzində ümumilikdə 120 kiloqramdan çox süd əldə edir.



Rayon kənd təsərrüfatı idarəsindən aldığımız məlumatlardan öyrəndik ki, burada damazlıq heyvan ixracına xüsusi önəm verilir. May ayının sonuna kimi 224 baş damazlıq heyvan ixrac olunub. Sutka ərzində rayon üzrə 106 ton süd istehsal edilir.

Bütün bunlar göstərir ki, Qəbələnin təsərrüfat həyatı artıq zirvəyə doğru xoş məramlı yürüşün önündədir. Torpağa qayıdışla bolluq ünvanına doğru götürülən uğurlu start hər gün, hər ay gözəl bəhrələrini verir.

**Rasim AMANOV,**
**"Respublika".**

# Rüstəm İbrahimbəyova Açıq məktub

**Son günlərdə gündəmi alt-üst edən Rüstəm İbrahimbəyovun çəkdiyi "Qafqaz üçlüyü" filmi haqqındakı xəbər hamı kimi, biz müəllimləri də sarsıtdı. Damarlarında türk qanı axan hər kəs - xalqı yerindən oynadan bu iftiraya qarşı susa bilməz. Bu, mümkün deyil! Təkcə ona görə yox ki, filmdə azərbaycanlılara qarşı iftira atılıb. Ən dəhşətlisi odur ki, bu ssenari vaxtilə əsərləri sevilə-sevilə oxunan, kinodramaturq, dünyaca tanınmış Rüstəm İbrahimbəyov tərəfindən yazılıb. Filmi də özgəsi deyil, məhz özü çəkib. Hansı niyyət və məqsədlə çəkdiyi isə göz qabağındadı. Uzun illər öncə onun yaradıcılığı haqqında fikir söyləsəydim, yəqin ki, başqa cür yazardım. Amma indi... Məmləkətimizin belə çətin dövr yaşadığı bir vaxtda... Bir halda ki, ölkə Prezidenti gecə-gündüz ağıllı, düşünülmüş addımlar atmaqla xalqı qoruyur, torpaqlarımızı geri qaytarmağın yollarını axtarır. O, elə bir siyasi addım atmaq istəyir ki, gələcəkdə heç kəs vətəndaşlıq vəzifəsi üçün xəcalət çəkməsin. Axı özünün dediyi kimi, "o, hər kəsin Prezidentidir". Baş verənlər üçün hər kəsin məsuliyyətini öz üzərinə götürmək qüdrətinə malik olan bir şəxsə, dövlət başçısına və onun məmləkətinə qarşı bu ədalətsizlik və hörmətsizlik, qarayaxma deyilmi?**

Filmdə ikrah hissi doğuran hadisələri izlədikcə, uzun illər öncə, 1989-cu ildə Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkilmiş "Ölsəm, bağışla" filmini xatırladım. Bir həqiqət var ki, insana film qədər tez təsir edən vasitə yoxdur. Ümumiyyətlə, bu film sonadək qəmli notlarla davam edir. Filmin qəhrəmanı qəlbi arzularla çoşub-çağlayan həmyerlimiz Yusifdi. Bu rol vasitəsilə müəllif müharibənin məhv etdiyi insanların faciəsini təsvir edib. Amma söyləyəcəklərim bu deyil. Filmin əsas qəhrəmanı Yusifin qarşılaşdığı çətinliklər tamaşaçıda təəssüf hissi doğurur. Filmin sonunda milliyyətcə erməni olan fotoqraf Edikin satqınlığı ilə onun rus və erməni dostları Yusifi öldürür. Edikin mənən saf, satqınlıqdan çox uzaq olan Yusifi öldürtməkdə gizli məqsədini isə yəqin ki, yalnız müəllif özü bilir. Bir ermənininin fitvasına və satqınlığına qurban gedən Yusifin ölümü, görünür, Rüstəm İbrahimbəyovun gizli arzularından biri imiş. Yoxsa, o, bu ermənini filmdə sağ saxlamaqla cəmiyyətə mesajmı ötürmək istəyirmiş? Şərin xeyir üzərində qələbəsini göstərməklə müəllifin məqsədi nə imiş? Axı tamaşaçı mənəvi qəhrəmanını heç vəclə itirmək istəmir.

Tarixən erməni vandalizminin törətdiyi vəhşiliklərin sayı-hesabı yoxdu. Dünya yaranandan xeyirlə şər arasında mübarizə, müharibə gedir. Amma xeyirxahlıq şərə nisbətən çox olduğu üçün dünya yaşaya bilir. Deyirlər, insanın xilqəti onun xislətindədi. Xoşbəxt qocalmağı Tanrı hər kəsə nəsib etmir. Dönüb ətrafımıza - sağımıza, solumuza baxaq. "Sən belə xoşbəxt qocalmağa necə nail olmusan?" - deyə aqillərin birindən soruşanda o: "mən bütün ömrüm boyu buna çalışmışam" cavabını verib. Əslində, bu fikirlərdə böyük həqiqət var. Ömrünün ahıllıq çağının daha ruzulu, bərəkətli, hörmətli olmağını Allahdan arzu edənlər müdrik insanlardır. Belə bir dövrünü yaşayan Rüstəm İbrahimbəyov, görünür, Tanrısını da unudub. Yadımdadı, tələbəlik illərində müəllimlərimizdən biri "Rüstəm İbrahimbəyov Azərbaycan dilində danışmağı sevmir" söyləmişdi. Bu, insanın hansı dildə təhsil alması ilə bağlı deyil, hər kəsin elinə, obasına, mental dəyərlərə verdiyi qiymətin ölçüsündən asılıdır. Dilini sevməyən millətini də sevməz. Bu aksiom uzun illər öncə öz təsdiqini tapıb. Təsadüfi deyil ki, M.Kaşğari "Türk dilini öyrənin, onların uzun sürən hakimiyyəti var" söyləyək türkün liderliyindən xəbər verib. Elə isə ağa qara deyən, dəvə kinli Alp Aruzun illərdən öncə qəlbində damla-damla yığılmış nifrətinin mayasında nə dururmuş? Qara çadırın heyfini Qazan xandan alan Alp Aruz kimi "vəhşi türkün qurbanı, mədəniyyətsiz, qorxaq" ifadələrini filmdə çox ürəklə işlədən kinodramaturq, görən, etdiklərindən məmnun qala bildimi?

Hər kəs peşəsindən asılı olmayaraq, ilk öncə, ləyaqətli şəxsiyyət, kamil insan, əsl vətəndaş olmağı bacarmalıdır. Əgər bu keyfiyyətlər yoxdusa, danışmağa nə hacət? Hesab edirik ki, bu erməni lobbisini müdafiə etməyin bir yoludu. Hər kəsin kimliyi onun yaradıcılığından, yaratdıqlarından bəlli olur.

Vandalizmi bütün dünyaya yayılmış erməniyə qarşı azərbaycanlı uşağın - Fərhadın qorxaq kimi göstərilməsi millətə qarşı hörmətsizlik deyilmi? Biz müəllimlər həmişə böyük qürurla igidlərimizin — Milli qəhrəmanlarımızın adını çəkirik. Bu gün məktəb partası arxasında əyləşən şagirdlərə, yeniyetmələrə nə cavab verək? Deyək ki, müasir Azərbaycan ədəbiyyatının nümayəndələri sırasında adını çəkdiyimiz Rüstəm İbrahimbəyovun əqidəsi satılıb? Dünənədək adı bir qəhrəmanlıq simvoluna çevrilmiş Fərhad qorxaqlıq mücəssəməsinə dönüb? Filmdəki Fərhadın Büsutun dağını yaran memar, qəhrəman Fərhadın varisi olmadığını necə söyləyək? Bu, hamımız üçün günah deyilmi? Axı ağa qara deməyə necə diliniz döndü? Filmdə 10-12 yaşlı uşaq bağ evində Timurun başına daş yağdıraraq ona "Siz ermənilər bizim düşmənimizsiniz! Sizinkilər metronu partlatdı, mənim dayım da orda həlak oldu" deməklə milli münaqişə toxumu səpir. Lap tutaq ki, düzgün tərbiyə olunmayan uşaq rolu kimi göstərilib. Axı millətini sevən ziyalı ən azından düzgün yolda olmayana terrorun deyil, insanlığın yolunu göstərər. Mədəniyyətin əsas vasitəsi kimi kinofilm bəşəri ideallar tərbiyə etməlidir. Əks halda, dünya məhv olar. "Qafqaz üçlüyü" filmi isə bu ideyadan çox uzaqdı, çünki filmin məqsədi beyinləri qurudacaq düşmənçilik toxumu səpməkdi. Müasir ədəbiyyatın nümayəndələri sırasında vaxtilə Rüstəm İbrahimbəyovun adını çəkdiyimiz halda, "Qafqaz üçlüyü" filmi onun kimliyini üzə çıxardı. Halbuki, uşaq eşitdiyinə deyil, gördüyünə əməl edər. Onlar özlərini Fərhad rolunda qorxaq gördülər. Filmin onların mənəviyyatına vura biləcəyi zərərin qədəri varmı görən?

Film boyu tamaşaçı bir neçə azərbaycanlı rolu ilə rastlaşır. Hamısı da bir-birindən nöqsanlı... Amma ən təhqiredici an isə filmdə üçrəngli Azərbaycan bayrağının baş-ayaq asılmasıdır. O bayraq ki xalqımız 100 ildir ki, onu başı üzərində qürurla dalğalandırır. Dövlət atributuna hörmətsizlik isə millətə xəyanətdir. Filmə tamaşa etdikcə hiss olunur ki, müəllif hadisələri olduğu kimi deyil, görmək istədiyi kimi çəkib.

Bizcə, erməni ədəbiyyatında müsbət azərbaycanlı obrazı yoxdu. Elə isə nədən Rüstəm İbrahimbəyov bu təzadın qarşısına müsbət erməni rolu çıxarmaqla xalqına qarşı hörmətsizlik etdi? Nədən? ... Axı o, xalq yazıçısı kimi əsərlərində və əməllərində Azərbaycanı daha yüksəkliklərə qaldırmaqla millətsevərliyini bütün ömür boyu göstərməli olduğu halda, belə bir yanlış yolu seçdi? Axı bu vətən, xalq, dövlət onu hər cür yüksək adlara layiq görüb. Filmin bu cür çəkilişi onun qərəzli mövqedən çıxışını göstərir. Bir adam haqqında hamı eyni dərəcədə müsbət fikirdə ola bilməz. Əgər belə olsa, demək, psixoloji vəziyyətin gərginliyindən xəbər verir. Rüstəm İbrahimbəyov kimi isə sevməyə bilər. Bu, bir insana olan münasibətdən başqa bir şey deyil. Amma xırda hisslərə qapılaraq millətin və dövlətin uğurlarını görməmək, onu aşağılamaq Allah qarşısında ən böyük günahdı. Dünyanın ən inkişaf etmiş dövlətləri də bu gün Azərbaycanı, onun müstəqilliyini tanıyır. Aqillərimiz necə də doğru söyləmişlər: ağacı qurd içindən yeyər. Amma yox, bu millət elə bir uğurlara imza atır ki, onun qarşısında Keçəl Həmzələr də məhv olur.

Deyirlər, dünya ikiyə bölündü, çatları yazıçıların ürəyindən keçdi. Dünya iki yerə — işıq və qaranlığa, xeyir və şərə bölünüb. İşığı işıqlı insanlar sevər. Qaranlıq həmişə işıqdan qorxub. İşıq gələndə o yox olub. Xalqımız "Azərbaycan Cümhuriyyətinin 100 illiyi"ni təntənə ilə qeyd edir. Bu təntənə özü işıqlı insanların əməllərinin nəticəsidir.

**Qənirə ƏMİRCANOVA,**
**Əməkdar müəllim, 189-190 saylı tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru.**

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN BAŞ DÖVLƏT YOL POLİSİ İDARƏSİ AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender 4 (dörd) lot üzrə keçirilir:

Lot-1. Yol polisi əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə gödəkçələrin satınalınması.

Lot-2. Yol polisi əməkdaşlarının istifadəsində olan alkotestr və narkotestrlər üçün müştüklər.

Lot-3. BDYPİ-nin qeydiyyat imtahan bölmələri üçün generator, işıq tənzimləyici və mal-materialların satınalınması.

Lot-4. Nəqliyyat vasitəsinin hərəkətini məcburi dayandıran qurğu.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xırdalan-Binəqədi şosesi, 4 ünvanından ala bilərlər.

Əlaqə telefonu: 590-81-60.
Əlaqələndirici şəxs: Əvəz Məmmədzadə
İştirak haqqı:
Hər lot üzrə 150 (yüz əlli) manat
Dövlət Xəzinədarlıq Agentliyi
Hesab:
AZ45CT00000000000002078506
VÖEN: 1401555071
KODU: 210005
VÖEN: 9900063851
M/H:
AZ41NABZ01360100000000003944
S.W.I.F.T: CTREAZ 22
Vəsait alan: Baş Dövlət Yol Polisi İdarəsi
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
10. Digər sənədlər tələb olunmur.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 iyul 2018-ci il saat 17:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 26 iyul 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Xırdalan-Binəqədi şosesi, 4 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 iyul 2018-ci il saat 11:00 tarixində Bakı şəhəri, Xırdalan-Binəqədi şosesi, 4 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

*Yaqub Mahmudov*

# Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix"

## *Şərqi və Qərbi Ermənistan haqqında uydurma*

Erməni tarixçiləri və onların himayədarları ermənilərin tarixi və erməni dövlətçiliyinin saxta konsepsiyasını yaratmışlar və bunun təməl daşlarından biri "Şərqi Ermənistan" və "Qərbi Ermənistan" anlayışlarıdır. Konsepsiya iki istiqamətdən ibarətdir: birincisi e.ə. VIII-VII əsrlərin Urartu mixi yazılarını mənimsəmək yoluyla formalaşdırılmışdır; ikinci istiqamət, əsası Moisey Xorenski tərəfindən qoyulmuş, təqribən 5000 il əvvəlki hadisələrlə - Ümumdünya daşqını və Nuhun gəmisi haqda rəvayətlərlə bağlıdır. Hər iki istiqamət "qədim erməni mənbələri"nə əsaslanaraq saxta "Ermənistan tarixi"ni yaradır.

Bu konsepsiyanı əldə rəhbər tutaraq, erməni tarixçiləri 1828-ci ildə çar Rusiyası tərəfindən zəbt edilmiş Azərbaycan torpaqlarında - Naxçıvan və İrəvan xanlıqları ərazilərində - "Erməni vilayətləri" yaradıldıqdan sonra Azərbaycan tarixinin geniş miqyasda saxtalaşdırılmasına girişdilər. Ermənilər çar Rusiyası siyasi dairələrinin fəal yardımı ilə üzdəniraq "Şərqi Ermənistan"ın saxta tarixini yaratmağa başladılar. Arxiv sənədləri, Rusiya imperiyasının Azərbaycan xanlıqları, Osmanlı Türkiyəsi, Qacarlar İranı ilə bağladığı müqavilələrin rəsmi adları və mətnləri saxtalaşdırılırdı. Azərbaycanın İrəvan, Naxçıvan, Gəncə və Qarabağ xanlıqlarının əraziləri **"Şərqi Ermənistan",** Şərqi Anadolunun indiki əraziləri dəyişdirilib **"Qərbi Ermənistan"** adlandırılırdı və bu ərazilərin tarixi bugünədək "erməni xalqının tarixi" kimi tədqiq edilir.

Bu məsələyə aydınlıq gətirmək üçün ermənilərin əsl tarixinə ötəri nəzər salmaq, xüsusən ermənilər kimdirlər, kiçik Asiyaya nə zaman və haradan gəliblər, hazırda daşıdıqları etnonimlə (yəni "ermənilər" adıyla) nə vaxtdan məlum olublar kimi tarixi ədəbiyyatda yaxşı əks olunan faktlarla tanış olmaq, həmçinin ermənilərin Cənubi Qafqaza köçürülməsi və onların Azərbaycan torpaqlarını planlı şəkildə zəbt etmələri prosesinə göz gəzdirmək kifayətdir. Bu məqsədlə biz yuxarıda qeyd olunan problemə aydınlıq gətirən çoxsaylı sənədlərin ümumi kütləsindən daha əhəmiyyətli olanlarına istinad edəcəyik.

Ermənilərin mənşəyi ilə bağlı ilk məlumat "tarixin atası" Herodota (e.ə. 480-424) məxsusdur. Qədim yunan tarixçisi ermənilərin ulu babaları **güman olunan friqlərin (frigiyalıların) Kiçik Asiyaya Avropadan (Makedoniyanın qonşuluğundan) köçüb gəldiyini yazır.** Heradotun bu barədə konkret məlumatı belədir: **"Frigiya torpağından köç etmiş armenilər frigiyalılar kimi silahlanmışdılar".** Bizi maraqlandıran ifadə orijinalda belə səslənir: frigiyadan köçürülənlər" və ya "frigiya mənşəlilər".

Bizans yazıçısı Stefan (V əsrin sonu - VI əsrin əvvəlləri) özündən 1000 il əvvəl yaşamış yunan müəllifi Knidli Evdoksun bir məlumatını çatdırır. Həmin məlumat tanınmış şərqşünas İ.M.Dyakonovun tərcüməsində belə səslənir: **"Armenilər mənşəcə Frigiyadandırlar və dilləri də frigiyalılarınkına çox oxşayır".** Başqa bir Bizans müəllifi - Yevstafi də (XII yüzillik) özündən 10 əsr əvvəl yaşamış yunan müəllifi Dionisi Periegetə istinad edərək *erməni və frigiya* dillərinin yaxınlığını qeyd edir. Q.B.Caukyan bu məlumatları yanlışlıqla başqa müəllifin, Qalikarnaslı Dionisinin Qalikarnaskinin adına yazmışdır.

Əksər tədqiqatçılar qədim yunan müəlliflərinin məlumatlarına əsaslanaraq hesab edirlər ki, ermənilərin ulu babaları - friq tayfaları ümumi köç dalğasıyla Balkan yarımadasındakı vətənlərini tərk edib e.ə. II minilliyin sonlarında Kiçik Asiyaya, müasir Türkiyənin ərazisinə köçmüş və orada köhnə Arme toponimini mənimsəyərək onu öz etnonimlərinə çevirmişlər. Odur ki, erməni müəlliflərin ermənilərin Kiçik Asiyaya hələ Nuh peyğəmbər və Ümumdünya daşqını, daha doğrusu 5000 il əvvəl baş verdiyi güman edilən hadisələr zamanında gəlişiylə bağlı iddiaları açıq-aşkar saxtalaşdırmadır.

Ermənilərin Kiçik Asiyaya köçünün Anadolu ərazilərində ən qüdrətli dövlətin - Het şahlığının süqutu dövrünə təsadüf etdiyinə baxmayaraq, Het mətnlərində nə frigiyalılar, nə də ermənilər barədə məlumatlara təsadüf olunmur.

XX əsrin 40-cı illərindən etibarən elmi ədəbiyyatda ermənilərin Kiçik Asiyada gəlmə deyil, guya Anadolu mənşəli xalq olduqları barədə yazılar yer almağa başlayır. Belə ki, ermənilərin etnik kimliyi ilə bağlı terminlərin ətrafında aparılan tədqiqatlarda ilk hədəf Het mətnlərində adı keçən Hayasa çarlığının adı seçildi. Hayasanın dil materialı antroponim və toponimika ilə təmsil olunub. Q.Kapansyan ermənilərin özlərinə verdiyi "hayk" adını Hayasa ölkəsinin adına bağlamağa çalışır və beləliklə ermənilərin etnik köklərini Balkanlarda deyil, Anadoluda axtarır. Başqa sözlə, ermənilərin Anadolunun aborigen, yerli etnos olduğunu sübut etməyə çalışır.

Diqqəti çəkən odur ki, "Hayasa" adındakı -sa (və ya -ssa) etno-toponimik şəkilçisi erməni dilində mövcud deyil, erməni dilində eyni funksiyanı icra edən -k şəkilçisinə isə qədim Anadolu dillərinin heç birində, o cümlədən *hayasa və friq* dillərində rast gəlinmir. İ.M.Dyakonov təsdiq edir ki, Hayasa dilinin **erməni dilinə heç bir aidiyyəti yoxdur".**

**Göründüyü kimi, e.ə. VI əsrə qədərki tarixi dövrdə Yuxarı Fərat və Yuxarı Dəclə vadilərində nə əhalinin ermənidilli olmasını, nə də hər hansı bir erməni çarlığının mövcudluğunu təsdiqləyən ilk mənbə yoxdur. Ermənilərin ehtimal edilən ulu babaları Kiçik Asiyanın yerli əhalisi olmayıblar. Həqiqətdə, onlar Yuxarı Fərat torpaqlarına Balkan yarımadasından köçüb gəlmişlər.**

"Ermənistan" adı altında dövlətin meydana çıxmasından danışarkən isə qədim dövrdə Kiçik Asiyada (Anadoluda) müxtəlif etnik qrupların olmasını, onların mədəni inkişaf səviyyələrini və xüsusiyyətlərini nəzərə almaq lazımdır. E.ə. VI-IV əsrlərdə Əhəməni imperiyasının tərkibində olan Armina satraplığında ciddi sosial-iqtisadi (etnik yox!) dəyişikliklər baş vermişdir. I Dara zamanından "Armina" adlanan ərazidə Gidarna nəslindən olan fars zadəganları hakimlik edirdi. Sonralar, e.ə. III əsrdə hərbi-siyasi proseslər səbəbindən Selevkilər imperiyasının xarabalıqları üzərində yeni dövlətlər, o cümlədən Selevki sərkərdəsi Zariadrinin (Zareh) Sofenada və onun oğlu Artaxşayasinin (Artaksi, I Artaşes) Armeniyada siyasi qurumları meydana gəlir.

### Qədim yunan tarixçisi Ksenofontun "Armeniya"sı

Armeniya ərazisi haqqında məlumat verən müəlliflərin biri də yunan alimi **Ksenofontdur** (təqribən e.ə.430/425-355/354). O, yunan muzdlu qoşunlarının tərkibində Kiçik Kirin qardaşı II Artakserksə qarşı taxt-tac davasında iştirak etmişdir. Ksenofont e.ə. 401-ci ildə Kunaks kəndi (Babildən 90 km şimalda) yaxınlığındakı döyüşdə Kiçik Kirin məğlubiyyətindən sonra yunan muzdlularının Aşşur (Assuriya), Armeniya və başqa ərazilərdən keçməklə vətənə dönüşünə başçılıq edən sərkərdələrdən idi. Yunan qoşunlarının döyüş yolu, onların geri qayıdarkən keçdiyi ərazilər və rastlaşdıqları xalqlar Ksenofontun **"Anabasis"** əsərində kifayət qədər dəqiq təsvir edilmişdir.

Ksenofontun yazdığına görə, Kunaksdan şimala doğru hərəkətə başlayan yunanlar Dəclə çayının sağ sahili ilə şimala doğru irəliləyərək böyük çətinliklə karduxların ölkəsindən keçib, Kentrit çayına çatmışlar. Ksenofont bu çayın karduxların ölkəsini Armeniyadan (yəni "Armeniya satraplığı"ndan) ayırdığını göstərir. Pars (fars) satrapı Orontun yunanların çayı keçməsinə mane olmaq cəhdi baş tutmur. Ksenofontun məlumatında (IV:III, 4) ermənilər satrapın muzdlu qoşunları sırasında yad olunurlar: "...Onlar Orontun və Artuxun muzdlu döyüşçüləri olan ermənilər, mardlar və kəldanilər idilər".

Ksenofontun bu məlumatından aydın olur ki, Teleboy çayı rayonunda Orontun idarə etdiyi Armeniya vilayətinin ərazisi bitirdi və digər pars satrapı Tiribazın hakimiyyəti altında olan Qərbi Armeniya ərazisi başlayırdı. Qədim coğrafiyanın görkəmli tədqiqatçısı C.Tomson bu çayı Muş çayının kiçik qolu hesab edirdi. Kentrit çayından (Ksenofonta görə karduxların ölkəsi ilə Armeniyanın sərhədi) Qərbi Armeniyadakı Teleboy çayına qədər yunanların keçdiyi məsafə C.Tomsonun göstərdiyi yerə uyğun gəlir. Deməli, pars satrapı Tiribazın Armeniyasına Van gölündən şimalda yerləşən ərazi daxil idi və bu ərazi "Qərbi Armeniya" adlanırdı.

Bəzən elmi ədəbiyyatda "Qərbi Armeniya"ya müvafiq olaraq, "Şərqi Armeniya" adlanan inzibati vahidliyin mövcudluğu haqda yanlış fikir söylənilir. Yeri gəlmişkən, Əhəmənilər zamanında ermənilərin iki satraplıqda təmsil olunmalarına dair rəsmi mənbələrdə heç bir məlumat yoxdur. "Şərqi Armeniya" məfhumuna antik müəlliflərin əsərlərində də rast gəlinmir. Əhəmənilərin hakimiyyəti dövründə ermənilər yalnız "Armina" adlanan XIII satraplıqda təmsil olunmuşlar. Ona görə, Ksenofontun işlətdiyi "Qərbi Armeniya" anlayışı "Armeniyanın qərbi" və ya "Armeniyanın qərb hissəsi" kimi dərk edilməlidir!

Ksenofontun məlumatına görə, Tiribaz tərcüməçi vasitəsilə yunanların başçılarına barışıq təklif etmişdir. Tərəflər arasında əldə olunmuş sazişə görə, "satrap yunanlara ziyan vurmayacaq", onlar isə əvəzində "evləri yandırmayacaqlar və ancaq özləri üçün lazım olan qədər ərzaq götürəcəklər" (IV: IV, 5-6). Buradan yollarına davam edən yunanlar aralarında 2 km-ə yaxın məsafə saxlamaqla onları müşayiət edən Tiribazın nəzarəti altında daha 70-90 km irəliləyərək ətrafında hər cür azuqə ilə bol kəndlər olan saraya çatırlar və elə orada da gecələyirlər (IV: IV, 7-14). Tiribazla barışığa baxmayaraq, sayıqlığı itirməyən yunanlar yaxınlıqdakı dağlarda tonqalların görünməsi barədə xəbər alırlar və bunu yoxlamaq üçün kəşfiyyat dəstəsi göndərirlər. Kəşfiyyatçılar bir parsı əsir tutub özləri ilə aparırlar və onun məlumatlarından aydın olur ki, o, Tiribazın düşərgəsindən ərzaq dalınca gedirmiş. Tiribazın qoşunu və onun kimə qarşı toplanması ilə bağlı yunanların sualına cavabında pars əsgəri bildirir ki, satrapın qoşunu onun öz qüvvələrindən, habelə muzdlu xaliblərdən və taoxlardan (Qara dənizin cənub-şərq sahillərində yaşayan toplumlar) ibarətdir və o, qarşıdakı dağ aşırımından yeganə yolun keçdiyi dar keçiddə yunanlara hücum etmək niyyətindədir. Yunanlar Tiribazın düşərgəsinə yaxınlaşaraq qəfil həmlə ilə onun qüvvələrini qaçmağa məcbur edirlər və ertəsi gün, düşmən özünə gəlməmiş, sürətli yürüşlə təhlükəli dağ keçidini geridə qoyurlar (IV: VI, 15-22; IV: V, 1).

Burada Tiribazın hərbi qüvvələri barədə məlumat diqqəti xüsusilə cəlb edir. Göründüyü kimi, satrapın qoşunu onun öz qüvvələrindən və qonşu xalqlardan toplanmış muzdlu döyüşçülərdən ibarət idi. Mənbədə Tiribazın "öz qüvvələri"nin etnik mənsubiyyəti göstərilmir. **Maraqlıdır ki, ərazinin "Armeniya" adlandırılmasına baxmayaraq, Ksenofont ermənilərin özü barədə, onların həmin ərazidə yaşaması, erməni dilinin orada işləndiyinə dair heç bir məlumat vermir. Yunanlar yerli əhaliylə pars dili vasitəsilə ünsiyyətə girirdilər və bu, Armeniya adlanan ərazidə erməni dilinin deyil, məhz pars dilinin işlək dil olduğunu göstərir.**

Sonra Ksenofont belə məlumat verir: "Yunanlar Fərat çayını mənbəyinin yaxınlığında keçirlər və son dərəcə çətin, qarlı-küləkli havada irəliləyərək bir kəndə çatırlar, kənddən su dalınca gələn qadınlar və qızlarla rastlaşırlar. Onlar yunanlardan kim olduqlarını soruşurlar. Tərcüməçi parsca dedi ki, onlar çarın yanından gəlib satrapın yanına gedirlər. Qadınlar dedilər ki, satrap burada yoxdur, təxminən bir fərsəng o tərəfdədir. Gec olduğu üçün yunanlar səddi adlayıb, kənd ağsaqqalının yanına getdilər" (IV: V, 2-10). Ksenofont daha sonra əlavə edir: "Bir müddət burada qaldılar və onlara barbar paltarlı erməni uşaqları xidmət edirdi. Yunanlar pars dilində danışan tərcüməçi vasitəsi ilə soruşdular ki, bura hansı ölkədir. O, cavab verdi ki, bura "Armeniyadır" (IV: V, 33-34).

Bir həftədən sonra yollarına davam edən yunanlar Ksenofontun Fasis adlandırdığı, əslində isə Arazın başlanğıc hissəsi olan çay boyu şərqə doğru gedirlər. Tezliklə, yunanlar səhvlərini düzəldib yenidən şimal-qərb istiqamətində hərəkət edirlər. Ağır döyüşlərlə taoxların (Fəratın mənbəyi) və xaliblərin (Ksenofonta görə, Çorox çayının vadisi), skifenlərin, makronların və kolxların ölkələrindən keçən yunanlar, nəhayət, Trapezunda (müasir Trabzon) çatırlar və oradan vətənə doğru yollarına davam edirlər.

Yunan qoşunlarının keçdiyi yolun təsviri göstərir ki, Əhəmənilərin XIII satraplığı olan Armeniyanın hüdudları Dəclənin mənsəbindən Fərat və Araz çaylarının yuxarılarına qədər uzanırdı. Ksenofont Armeniyada heç bir şəhərin, qalanın yaxud məbədin adını çəkmir. Erməni müəllifləri bunu belə şərh edirlər ki, guya yunan hərbi dəstələri lazımsız toqquşmalardan qaçmağa çalışaraq, şəhərlərin yanından ötüb müdafiəsiz kəndlərə daxil olduqlarından Ksenofontun diqqətini o qədər də cəlb etməyib. Lakin bu izah mənbədəki olan məlumatın yanlış şərh edilməsindən başqa bir şey deyil.

**(davamı növbəti saylarımızda)**




## MERKEL: RUSİYANIN "G7" FORMATINA QAYITMASI QEYRİ-MÜMKÜNDÜR



"Hazırda Rusiyanın "G7" formatına qayıtması mümkün deyil". "APA"nın "Bild" nəşrinə istinadən verdiyi xəbərə görə, bu sözləri Almaniya kansleri Angela Merkel Bundestaqda "hökumət saatı" zamanı sualları cavablandırarkən bəyan edib.

Angela Merkel bildirib ki, "Böyük səkkizlik" iştirakçılarının qarşılıqlı fəaliyyəti beynəlxalq hüquq normalarına əməl olunmasına əsaslanırdı. "Krımın ilhaqı beynəlxalq hüququn kobud pozuntusu idi, ona görə də Rusiyanın "G8" formatından kənarlaşdırılması qaçılmaz oldu", - deyə Almaniya kansleri vurğulayıb.

Bununla yanaşı, Angela Merkel Moskva və Berlin arasında daimi əlaqənin mövcud olduğunu dilə gətirib.

Qeyd edək ki, 2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsindən sonra "G8" formatında iştirak edən 7 ölkə Soçidə nəzərdə tutulan növbəti sammitə qatılmayaraq Brüsseldə Rusiyasız görüş keçirib. Beləliklə, format "G7" olub. Bura ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, Fransa, Yaponiya və İtaliya daxildir.

## ƏFQANISTAN HÖKUMƏTİ "TALİBAN"la MÜVƏQQƏTİ ATƏŞKƏS ELAN EDİB



Əfqanıstan prezidenti Əşrəf Qani ölkənin "Taliban" hərəkatına qarşı atəşkəs elan etdiyini bəyan edib. "APA"-nın xəbərinə görə, prezident Əşrəf Qani bu barədə şəxsi "Twitter" səhifəsində yazıb.

Əşrəf Qaninin sözlərinə görə, atəşkəs Ramazandan sonra qeyd edilən "Eid-ul-Fitr" (Orucluğun başa çatması məqsədilə qeyd edilir) bayramının beşinci gününə kimi davam edəcək.

Eyni zamanda, prezident qeyd edib ki, şiddət və sui-qəsd halları dində qəti qadağandır. "Əfqanıstanın milli müdafiə və təhlükəsizlik ordusu bu müddət ərzində təkcə "Taliban"a qarşı hücum manevrlərini dayandıracaq, İŞİD və digər əcnəbi terror təşkilatlarının hücumlarına qarşı mübarizə isə davam etdiriləcək", - deyə Əfqanıstan prezidenti vurğulayıb.

Bununla yanaşı, Əşrəf Qani onu da bildirib ki, atəşkəs bəyanatı Əfqanıstan münaqişəsinin sülh yolu ilə həllinə dair hökumətin gücünü və xalqın iradəsini təcəssüm etdirir.

## İRAQDA SƏSLƏRİN ƏLLƏ SAYILMASINA QƏRAR VERİLDİ



İraq parlamenti mayın 12-də keçirilən parlament seçkilərində saxtakarlıq olduğu iddialarının irəli sürülməsi nəticəsində səslərin əllə sayılmasına qərar verib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Əldə edilən məlumata görə, iyunun 6-da keçirilən iclasda "ölkə miqyasında seçki qutularının yenidən açılaraq əllə sayılması" qərarı səs çoxluğu ilə qəbul edilib.

İclasda həmçinin İraq Müstəqil Ali Seçki Komissarlığı üzvlərinin vəzifələrinin dondurulması və onların yerinə 9 hakimin təyin edilməsi qərara alınıb.

Eyni zamanda, xəbər verilir ki, İraq Türkmən Cəbhəsinin sədri Erşet Salehi parlamentin iclasında qəbul edilən qərardan məmnunluğunu dilə gətirirək türkmənləri təbrik edib.

Qeyd edək ki, İraqın başda Kərkük və digər şimal bölgələri olmaqla səsvermə zamanı elektron cihazlardan istifadə edilərkən saxtakarlığa yol verildiyi iddiaları irəli sürülüb.

## "BOEING" ŞİRKƏTİ İRANLA BAĞLANAN MÜQAVİLƏLƏRİ LƏĞV EDİB



Məşhur təyyarə istehsalçısı olan "Boeing" şirkəti Amerika Birləşmiş Ştatlarının İrana qarşı yeni sanksiyaları səbəbindən İranın hava yolları şirkətləri ilə bağlanan müqavilələri ləğv edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

"Boeing" şirkətinin rəsmisi İranla 2015-ci ildə imzalanan Hərtərəfli Birgə Fəaliyyət Planınından sonra bağlanan müqavilələr çərçivəsində İrana indiyədək təyyarə verilmədiyini və artıq lisenziyalarının olmadığı üçün verə bilməyəcəklərini qeyd edib.

Bununla yanaşı, "Boeing" şirkəti təxminən 40 il davam edən embarqo səbəbindən ABŞ-dan sərnişin təyyarəsi və təyyarə ehtiyat hissələri satın ala bilməyən İranla 2016-cı ilin dekabr ayında 16,6 milyard dollarlıq və 2017-ci ildə 3 milyard dollarlıq iki müqavilə bağlamışdı.

"Boeing" şirkətinin müqavilələri ləğv etməsinə səbəb ABŞ prezidenti Donald Trampın ötən ay Hərtərəfli Birgə Fəaliyyət Planından çıxmaq barəsində qərar qəbul etməsi və İrana qarşı 2015-ci ildə təxirə salınan sanksiyaların yenidən tətbiq olunacağını açıqlaması olub.

## DONALD TRAMP İLK DƏFƏ İFTAR VERDİ



ABŞ prezidenti Donald Tramp Ağ Evdə ilk dəfə iftar süfrəsi təşkil edib. "APA"nın Türkiyə mətbuatına istinadən məlumatına görə, Donald Trampın dəvət etdiyi qonaqların sayı elə də çox olmayıb.

Ziyafətə Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Tunis, İraq, Qətər, Bəhreyn, Mərakeş, Əlcəzair və Liviyadan olan diplomatik nümayəndələr qatılıb.

Eyni zamanda, qısa nitq ilə çıxış edən ABŞ prezidenti bütün müsəlman dünyasının Ramazan ayını təbrik edib və müsəlman ölkələrinin nümayəndələrini Ağ Evdə qəbul etməkdən məmnun olduğunu söyləyib.

Bununla yanaşı, Donald Trampın islamofobik çıxışlarına və dəvət edilməmələrinə etiraz edən bəzi müsəlman qeyri-hökumət təşkilatları Ağ Ev qarşısında "alternativ iftar" aksiyası təşkil ediblər.

Aksiyada Amerikan-İslam Münasibətləri Şurası və Şimali Amerika İslam Cəmiyyəti kimi ciddi QHT-lərin nümayəndələri iştirak edib. Məlumata əsasən, 150-yə qədər müsəlman birlikdə namaz qıldıqdan sonra iftar açıb.

Qeyd edək ki, ötən il Donald Tramp sələfləri Bill Klinton, kiçik Corc Buş və Barak Obamadan sonra 20 illik ənənəni pozaraq Ağ Evdə iftar verməmişdi.

## BMT TƏHLÜKƏSİZLİK ŞURASININ UKRAYNAYA DAİR BƏYANATI



BMT Təhlükəsizlik Şurası Ukraynanın şərqində atəşkəsin pozulmasını pisləyən bəyanat qəbul edib. "APA"-nın məlumatına görə, bu barədə qurumun saytında bildirilir.

Bəyanatda deyilir: "Təhlükəsizlik Şurası atəşkəsin pozulmasının davam etməsini, xüsusilə Minsk razılaşması ilə qadağan edilən ağır silahların istifadəsini pisləyir. Ağır silahlardan istifadə mülki şəxslər də daxil olmaqla insanların ölümünə səbəb olur".

Təhlükəsizlik Şurası üzvləri tərəflərdən Minsk razılaşmasının müddəalarına uyğun olaraq qüvvələri geri çəkmək və ağır silahların dərhal çıxarılmasına dair öhdəlikləri yerinə yetirmək tələb edilib.

## SƏUDİYYƏ VƏ RUSİYANIN PLANINA İRAQ MANEƏSİ



Dünya bazarında xam neftin qiymətlərində qeyri-stabillik davam edir. "APA"-nın məlumatına görə, "Brent" nefti gün ərzində ucuzlaşsa da, yenidən bahalaşaraq hazırda 77,04 dollara satılır. Qərbi Texas markası isə hazırda 65,82 dollara satılır. İki marka arasında qiymət fərqi artıq 11 dolları keçib.

Verilən xəbərə əsasən, ABŞ-ın OPEK üzvü olan İrana yenidən sanksiya tətbiq etməsi bu ölkənin neft ixracına mənfi təsir edir. Digər OPEK üzvü Venesuelada isə siyasi ab-hava neft istehsalını azaldır.

Səudiyyə Ərəbistanı və Rusiya isə qeyd olunan ölkələrdən qaynaqlanan kəsiri aradan qaldırmaq üçün kartelin istehsalı azaltmaqla bağlı razılaşmasını dəyişmək istəyir. Sözügedən məsələnin Vyanada müzakirə olunacağı gözlənilir.

Bununla yanaşı, İraqın neft naziri Cabbar əl-Luaibi bazarda sabitliyi və qiymət həddini normal dəyərləndirərək istehsalı artırmaq məsələsinin danışıqlar masasında olmadığını bəyan edib.

Eyni zamanda, verilən xəbərə görə, ABŞ-da istehsal artmaqda davam edir. Həmçinin hasil olunan neftin daşınması üçün boru xətti çatışmazlığı probleminin uzun müddət həllini tapmayacağı bildirilir. İstehsalın artmasın ilə yanaşı ehtiyatların da artacağı gözlənilir. ■

# Laçın rayon 2 nömrəli uşaq musiqi məktəbi



18 may 1992-ci ildə Laçın rayonu erməni vandalları tərəfindən işğal olunarkən mədəniyyət və incəsənət obyektləri də bu faşistlərin əlinə keçdi. Belə ki, respublika üzrə işğal olunmuş 47 uşaq incəsənət və musiqi məktəblərinin bir neçəsi Laçın rayonunun payına düşmüşdür. Müharibədə 6 Milli Qəhrəmanı olan və 265 şəhid verən Laçın rayonunun da qeyri-mədəni-maarif müəssisələri ilə yanaşı 5 musiqi və incəsənət məktəbi məcburi köçkün şəraitinə düşmüşdür. Bu musiqi məktəblərindən biri də 2 nömrəli uşaq musiqi məktəbidir.

Payına məcburi köçkünlük həyatı düşən bu məktəb bir neçə yerdə məskunlaşmalı olsa da rayon icra hakimiyyəti və Mədəniyyət Nazirliyinin səyi nəticəsində öz fəaliyyətini davam etdirmişdir. Hazırda Xırdalan şəhərində fəaliyyət göstərən məktəb nəinki rayon, o cümlədən respublika tədbirlərində də öz töhfəsini verir. Məktəb rayonun tədbirlərində daim aparıcı rol oynayır. Xarici təşkilatların dəstəyi ilə fəaliyyətə başlayan məktəb 2000-ci ildən daha fəallıq göstərməklə fərqlənir. Məktəbin direktor əvəzi Böyükağa Abdullayev onu da qeyd etdi ki, indi Laçın rayon 2 nömrəli uşaq musiqi məktəbi rayonun və respublikanın təcrübəli, qabaqcıl uşaq musiqi məktəbləri ilə yaradıcılıq əlaqələri saxlayaraq öz işini günün tələbləri səviyyəsində qurmaq üçün əlindən gələn bütün imkanlardan bacarıqla istifadə edir. Böyükağa müəllim söhbət əsnasında onu da qeyd etdi ki, görülmüş tədbirlərin nəticəsidir ki, uşaqların məktəbə cəlbolma məsələsi, onların musiqi alətləri ilə təmin olunması və başqa məsələlər öz həllini tapır. Onu da qeyd etmək lazımdır ki, məktəbin məzunları musiqi təmayüllü orta və ali ixtisas məktəblərinə qəbul olmaq üçün də maraq göstərirlər. Əvvəllər bir neçə şöbə ilə fəaliyyətə başlayan məktəbdə indi 30 nəfər təcrübəli müəllim kollektivi 6 ixtisas—fortepiano, tar, qarmon, xanəndəlik, nağara, səs üzrə təhsil verirlər. 101 şagirdin oxuduğu bu məktəb indi rayonun ən qabaqcıl məktəbləri sırasındadır. Uşaqların musiqiyə olan marağını artırmaq üçün özfəaliyyətin inkişafına yönəldilir, ustad dərsləri təşkil olunur.



Müsbət hal kimi qeyd edilməlidir ki, regional mədəniyyət idarəsi və onun rəhbəri Rza müəllim məktəbə hərtərəfli qayğı göstərir.

Respublika musiqi müəllimləri içərisində təcrübəli müəllim kimi ad-san qazanmışlar. Məsələn, Adil Rəhimov, Ələkbər Əkbərov, Şaiq Rzayev, Anar Rəhimov, Kəmalə Cavadova və başqa müəllimlər bu qəbildəndirlər. Fərəhlə qeyd etməliyik ki, ulu öndər Heydər Əliyev və Prezidentimiz İlham Əliyev məktəbin ilk illərində bu məktəbdə olmuş, müəllim və şagird kollektivi ilə görüşmüş, fəaliyyətləri ilə maraqlanmışdır. Bu qayğıdan ruhlanan məktəb kollektivi öz səylərini daha da artırmışlar.

Şagirdlərin bir çoxu fəxri fərmanlara layiq görülmüş, müxtəlif nominasiyalar üzrə keçirilən müsabiqə, olimpiada və festivallarda uğurla çıxış etmişlər.

**Zabit CAVADOV,**
**"Respublika".**


## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Şəki Rayon Mərkəzi Xəstəxanası 2018-ci il üçün cari və əsaslı təmir işlərinin aparılması ilə əlaqədar

## TENDER ELAN EDİR

**LOT-1. Cari təmir**
**LOT-2. Əsaslı təmir**

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə, müvafiq maddi-texniki bazanın, anbarların, lazımi sayda işçi qüvvəsinin olması və maliyyə imkanları.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər: Əlaqələndirici şəxs; Kərimov Nüsrət Musa oğlu, tel.: 055 605 05 99 (saat 9:00-dan18:00-dək bayram və bazar günlərindən başqa) ünvan: Şəki şəhəri, Z.Əliyeva 177 Şəki RMX.

Maraqlananlar LOT-lar üzrə "əsas şərtlər toplusu"nu aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra yuxarıdakı göstərilmiş ünvandan ala bilərlər.

**Lot - 1 üzrə - 100 (bir yüz) manat**
**Lot - 2 üzrə - 150 (bir yüz əlli) manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Hesab:*
*AZ03AİİB32051019447000201170*
*VÖEN: 3000100721*
*Bank: "Kapital Bank"ın Şəki filialı*
*Kodu: 200703*
*VÖEN: 3000104011*
*M/H: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T: AİİBAZ 2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün 18 iyul 2018-ci il saat 16:00-a kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün ərizə;*
*- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*- Malgöndərənin tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- Malgöndərənin son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış:*
*- Malgöndərənin satınalma müqaviəsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə arayış;*
*- Malgöndərənin Azərbaycan Respublikasında vergiərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq təşkilatlardan arayışlar.*

Göstərilən bütün sənədlərin tam və dolğun şəkildə təqdim olunması vacibdir. Surəti təqdim olunan sənədlərin notarial qaydada təsdiqi məcburidir. Əks halda sənədlər qəbul edilməyəcək.

İddiaçılar öz tender təkliflərini (zərflərin açıldığı tarixdən azı 30 Bank günü müddətində qüvvədə olmalıdır) və tender təklifinin 1%-i həcmində tender təminatını (zərflərin açıldığı tarixdən ən azı 60 Bank günü müddətində qüvvədə olmalıdır). 2 nüsxədən ibarət (əsli, surəti) ikiqat zərfdə imzalanıb - möhürlənmiş vəziyyətdə 24 iyul 2018-ci il saat 16:00-a kimi tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərinin açılışı 25 iyul 2018-ci il saat 16:00-da Şəki Rayon Mərkəzi Xəstəxanasında olacaqdır.

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**



## AZƏRBAYCAN DÖVLƏT NEFT və SƏNAYE UNİVERSİTETİ nəzdində Birgə AZƏRBAYCAN-FRANSA UNİVERSİTETİ 2018-ci ildə "Digər maşın və avadanlıqlar" maddəsi ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 LOT üzrə keçirilir:**
**"Digər maşın və avadanlıqlar"**

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmiş əsas şərtlər toplusunu (Nəsimi rayonu Azadlıq pr. 20, əlaqələndirici şəxs: K.Quliyev, telefon: 012-598-45-05) tender komissiyasından ala bilərlər.

**İştirak haqqı - 100 manat**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*VÖEN: 1400196861*
*Bakı ş. Az 1010 Azadlıq pr. 20*
*Bank rekvizitləri:*
*Kapital Bank ASC 28 may filialı*
*Kod 200123 VÖEN 9900003611*
*M/H AZ37NABZ01350100000000001944*
*H/hesab № AZ76AİİB38060029441210456112*
*SWİFT kod. AİİBAZ2X*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışların əslləri və tarixləri tender elanından sonra olmalıdır);*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər (Lisenziya, Şəxsiyyət vəsiqəsi və s.).*

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır)

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 iyul 2018-ci il saat 17:00-a qədər təklif və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 25 iyul 2018-ci il saat 17:00-a qədər, Nəsimi rayonu Azadlıq pr. 20-də yerləşən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifi 26 iyul 2018-ci il tarixdə, saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**



## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir: 155 ədəd 20 futluq HC, 200 ədəd 40 futluq HC və 300 ədəd 45 futluq HC (pallet wide) Universal İSO konteynerlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, təcrübə, maliyyə vəziyyəti, zəmanət müddəti.*

Tələb olunan mallar tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş sayda və müddətdə təyin edilmiş məntəqəyə təhvil verilməlidir.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, D.Əliyeva 230 ("Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin inzibati binası otaq-348) ünvandan (Əlaqələndirici şəxs: Qurbanov Əlikram, tel: (+99412) 499-62-19) ala bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat.**

*Təşkilat: "Azərbaycan Dəmir Yolları" QSC-nin Maliyyə İdarəsi*
*Hesab nömrələri:*
*AZ57İBAZ38050019449345061205 (AZN);*
*AZ47İBAZ38150018409345061205 (USD);*
*AZ64İBAZ38150018109345061205 (RUR).*
*VÖEN: 9900007721*
*Bank: Azərbaycan Beynəlxalq Bankı ASC "Nəqliyyat" filialı*
*Kodu: 805711*
*VÖEN: 9900001881*
*Müxbir hesab: AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. Code: İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifinin dəyərinin 1 (bir) %-i həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları (o cümlədən beynəlxalq uyğunluq sertifikatı).*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender təklifi və bank zəmanəti hər biri ayrı zərflərdə və ya eyni zərfdə olduğu halda, zərfin üzərində sıralama nömrəsi ilə sənədlərin adları yazılmalı, iddiaçının möhürü və imzası ilə təsdiqlənmiş formada təqdim olunmalıdır. Əks təqdirdə təklif edilən sənədlər qəbul edilməyəcək.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 iyul 2018-ci il saat 18.00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 26 iyul 2018-ci il saat 18.00-a qədər Bakı şəhəri, D.Əliyeva, 230 ("Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 27 iyul 2018-ci il tarixdə, saat 15.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**



## BİLDİRİŞ

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi tərəfindən əşya-geyimlərin satınalınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusu nəticələri haqqında tender komissiyasının 25 may 2018-ci il tarixli protokoluna əsasən, "RÜFƏT TƏCHİZAT" MMC qalib elan edilmiş və həmin təşkilatla 06 iyun 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"AzerGold" QSC-nin 14 may 2018-ci il tarixində İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) avadanlıqlarının satın alınması məqsədi ilə keçirdiyi Açıq Tenderdə Caspel MMC qalib gəlmişdir.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"AzerGold" QSC-nin 31 may 2018-ci il tarixində Fərdi mühafizə vasitələri və xüsusi geyimlərin satın alınması məqsədi ilə keçirdiyi Açıq Tenderdə Debet Uniform MMC qalib gəlmişdir.

**Tender Komissiyası.**

Ucar Rayon İcra Hakimiyyəti başçısının Ucar şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2018-ci il Kommunal Müəssisələri KombinatIında müqavilə əsasında işləyən işçilərə geyim paltarları və iş ləvazimatlarının alınması üçün kotirovka sorğusu keçirir. Kotirovka sorğusunun yekun iclası 14.06.2018-ci il tarixdə saat 12:00-da şəhər nümayəndəliyinin inzibati binasında keçiriləcəkdir.

**Tender Komissiyası.**

Orucov Elvin Altay oğlunun adına verilmiş Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbə Bələdiyyəsi tərəfindən 05 may 2003-cü il tarixli 375 N-li qərar itdiyi üçün etibarsız sayılır.

"KRİSTAL-F" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 1003545231) təşkilati-hüquqi formasını dəyişərək "KRİSTAL-F" Mənzil Tikinti Kooperativinə çevrildiyini elan edir.

Lənkəran şəhəri üzrə rayonlararası texniki inventarizasiya bürosu tərəfindən 5 may 1989-cu il tarixdə Lənkəran şəhərinin S.Vurğun küçəsində yerləşən və Zeynalov İntiqam Cəbrayıl oğluna birgə mülkiyyət hüququ üzrə məxsus olan 8 nömrəli yaşayış evinə verilmiş 91/91 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Seyidəkəran kənd sakini İbadov Sadir İbad oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 0090; KOD 80204028) itdiyi üçün etibarsız sayılır.

Lerik rayon aqrar islahat komissiyasının qərarı ilə Lerik şəhər sakini Kərimov Fərman Fətiağa oğluna verilmiş JN 740 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN

**Yardımlıdan Ayaz Əsgərov Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant Rövşən Əkbərova, qardaşı ELŞƏN ƏKBƏROVUN vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**


Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**

*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
07.06.2018